**Emfira Ərkli**

# DÜNYAM MƏNİM

*(Şeirlər)*

***"BORÇALI"***
**Bakı – 2021**

***Naşiri və redaktoru:***
***Dr.* Müşfiq BORÇALI**

***Redaksiya müdiri:***
**Zemfira AYVAZOVA**

***Rəyçi:***
**İlyas Əfəndi VƏFALI**

**Q ___700122___ - 01 – 2021, Qrifli nəşr.**
**M-00032017**

**© "BORÇALI" NPM, 2021.**

## *NƏŞRİYYATDAN*



Emfira Ərkli (Emfira Hacıbaba qızı Tağıyeva) - 1950-ci il fevralın 17-də Xaçmaz rayonundakı Alıc-qışlaq kəndində ziyalı ailəsində anadan olub.

Orta məktəbi bitirdikdən sonra Konserva kombinatında laborant və hesablayıcı vəzifəsində çalışıb.

1969-cu ildə Bakı Yeyinti-Sənaye Texnikumuna daxil olub. Texnikumu bitirdikdən sonra Xaçmaz Taxıl hazırlığı Kombinatında hesablama şöbəsinin müdiri işləyib, həm də partkom (ilk partiya təşkilatının katibi) kimi çalışıb.

Daha sonra Texniki Peşə məktəbində İxtisası üzrə istehsalat təlimi ustası işləyib, həm də müəllimlik edib. O, eyni zamanda, uzun müddət məktəbin ilk partiya təşkilatının katibi olub.

Hələ orta məktəbdə oxuduğu illərdən şeirə, poeziyaya vurulub. Özü də şeirlər yazıb, şeiriyyətə qovuşub.

Şeirləri müxtəlif mətbuat orqanlarında, almanaxlarda, poeziya antologiyalarında işıq üzü görüb. O cümlədən, Bakıda “Yurd” “Şərqin səsi”, Qubada “Şəfəq”, Sumqayıtda "Fakt" qəzetlərində; Qubanın “Gülüstan inciləri”, Şabranın “Şabran nəğmələri” almanaxlarında; Bakıda Müşfiq Borçalının “Zirvə” poeziya antologiyasında, “Canım Azərbaycanın”, “Sazlı-söziü Borçalı”, “Şah dağı”, “Ləlvər dağı” poeziya məcmuələrində, Vidadi Ağdamlının "Gözüm yolda könlüm səsdə", "Qələbəyə gedən yol", "Gəlirik Qarabağa", "Qarabağ Azərbaycandır" poeziya antologiyalarında davamlı çap olunur.

Emfira xanımın şeirlərində Qarabağ müharibəsindən, Şanlı qələbədən, mərd oğullarımızın döyüşlərdə göstərdikləri qəhrəmanlıqlardan bəhs olunur.

AKİVİHİ rəyasət heyyətinin qərarı ilə 70 illik yubleylə əlaqədər olaraq "Qızıl qələm" və "Ulu Öndər" fəxri media mükafatları ilə, eləcə də, "Azərbaycan Bayrağı", “Abdulla Şaiq”, "Xəlil Rza Ulutürk" diplomları ilə təltif olunmuşdur.

*"Dünyam mənim"* kitabı Emfira xanımın ilk kitabıdır.

Ailəlilidir, üç övladı İki oğlu, bir qızı, yeddi nəvəsi var.

*Biz də hörmətli Emfira xanımı ilk kitabının işıqüzü görməsi münasibətilə ürəkdən təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq!..*

***ZiM.Az***

## *Ön söz əvəzi*

Bir qəzəlimdə:
*"Bilmək istərsən kiməm,gör xoş əməllərdən məni,*
*Gəl tanı üzdən məni,zəhmətli əllərdən məni..."*
-deyərək, özüm də, daxil olmaqla bütün xoş əməlli, zəhmətkeş, nur üzlü insanları yaxından tanımağa çağırmışam.

Bu gün isə,yaxından tanıyacağımız insan,hal-hazırda onun könül dünyasından damla-damla süzülərək dəryalaşan "DÜNYAM MƏNİM" kitabının müəllifi Emfira Ərklidir.

Mən Xaçmazın "ULDUZLAR" ədəbi məclisindən tanıdığım bu şairə xanım dost kimi sədaqətli, ailədə ana,ünsiyyətdə mehriban,işində zəhmətkeş, ədəbiyyatda isə, özünəməxsus dəstixətti olan insandır ki, onun ilk kitabına redaktorluq edərək ön söz yazmağın şərəfinə nail oldum.

Şairə Emfira xanımın bu neçə illər ərzində yazdığı şeirlərinin bir hissəsidir ki, bu kitaba toplanmışdır. Təəssüflər olsun ki, o cavan yaşlarından şairlik etməyinə baxmayaraq müəyyən vacib səbəblərdən bu yolda ciddi addımlar atmamış və özünün könül bağının çiçəklərini heç kəsə qoxlatmamışdır. Yalnız öz tənhalığında sirdaş bilərək həmsöhbət olmuşdur.

"Mən Allahın bəndəsiyəm" şeirində;

*Ağrı, acı, burax məni,*
*Həyat yolun davam edim.*
*Səadətin şirinliyin*
*İcazə ver dadım gedim....*

-deyərək, bir kəsdən yardım ummayaraq cəsarətiylə ayaqda qalan şairə, şeirlə ağrılara,acılara bir namə yazmışdır.

Ədəbiyyatımızda olan şeirlərin 90%-ini ağrı-acı, qəm-qussə, həsrət-hicran mövzulu şeirlər təşkil etdiyi göz önündədir. Şairə E.Ərkli də, bu mövzulara öz şeirlərində geniş yer ayırmışdır.

Bu o demək deyildir ki, şairənin həyatı qəm-kədərli olduğundan yazdığı şeirlər də bu notda köklənmişdir. Əsasən şairlər tək

özünü yox, ətrafını, dostlarını və qeyri insanları da şeirlərində özü olaraq göstərmişdir. Misal üçün "Uca Allah kömək eylə", şeirinə baxaq.

*İsladır yağış torpağı,*
*Yuyur göz yaşım yanağı,*
*Ürək qəmdən deyir ağı,*
*Uca Allah kömək eylə.*

*Bizdən aslı deyil həyat,*
*Əlindədir bu kainat,*
*Yaşat bizi asan,rahat,*
*Uca Allah kömək eylə.*

*Yox olar bu qəm-kədərim,*
*Nurlu olar hər səhərim,*
*Tək səndədir ümidlərim,*
*Uca Allah kömək eylə.*

E.Ərklinin məhəbbət mövzusu ilə rəngarəng olan şeirləri bu kitabda çoxluq təşkil edir. Məhəbbət elə bir mövzudur ki, elə bir şair olmaz ki, onun bu mövzuda şeirləri olmasın.

Həsrət, acı, intizar, ümid məhəbbət şeirlərinin tərkib hissəsi olaraq hər insanın ürəyinə toxunacaq, içini alovlandıracaq, yanağını isladacaq, duyğulandıracaq bir mövzudur.

"Lal baxışlar" şeirində;

*O gözlər, o qaşlar,o lal baxışlar,*
*Məftun etdi məni o hər baxanda.*
*O qara gözlərdən çıxan qığılcım,*
*Yandırıb kül edir baxdığın anda...*

"Vüsal həsrəti" şeirində;

*Mən quru bir ağaca*
*söykənib oturmuşam.*
*Gözlərim dikilub yola,*
*Ümid ilə durmuşam...*

"Taparsan məni" şeirində;

*Sevincim səninlə, dərdim səninlə,*
*Məhəbbət günəşli qəlbim səninlə.*

*Eşqim,məhəbbətim,sevgim səninlə,*
*Harda olmuş olsam taparsan məni...*

E.Ərklinin Vətən şeirləri də, çoxluq təşkil edir.

Vətən mövzusu elə bir mövzudur ki,onun torpağında çiçək, səmasında günəş,ağacında bəhər olmamaq mümkün deyildir. Onun "Amin deyək", "Artıq məqamdır", "Hamının ürəyindən olan", "Vətən oğlu", "Mərdlik nişanəsi","Şəhidin anaya etirafı" kimi şeirlərdir ki, Vətən eşqi ilə qələmdən vərəqlərə süzülmüşdür. "Qaytarın torpağı" şeirindən bir təndə nəzər salaq.

*Ey məni dünyadan ayrı salanlar!*
*Yurdumu ayaqlar altda qoyanlar!*
*Ümid xəzinəsin çalıb soyanlar!*
*Qaytarın torpağı,qaytarın geri...*

Şükürlər olsun ki, bu kitab nəşrə getdiyi ayda milli ordumuzun cəsarəti ilə düşmən əsarətindən xilas olunan torpağımız xalqımıza qaytarıldı.

Nəsihətnamələri ilə məşhur olan N.Gəncəvi, X.Şirvani və başqa klassiklərimizin axarına düşən şairənin də,özünəməxsus nəsihətləri vardır. Onun "Hazır ol","Səni qəpiyə satacaq", "Ruzi qədərlədir", "Qoru", "İnamla yaşa", "Qeyrət ilə", "Burax xəbisliyi", "İnsanlıq yolu" və bir çox ibrətamiz, nəsihətnaməli şeirləri var. "Keçmə namərd körpüsündən" şeirində deyir:

*Ey insanlar, qulaq asın !*
*Hər an doğru deyin, yazın.*
*Dərk eyləyib çoxun-azın,*
*Keçmə namərd körpüsündən...*

Geniş mövzularla öz zənginliyini qoruyan Azərbaycan ədəbiyyatı elə bir dəryadır ki, o dəryanın fırtınası, burulğanı, dalğaları çox şairlərin gəmilərini qərq etmişdir. Şair olmağın yüksəkliyi olduğu kimi alçaqlığı da vardır. Necə ki, bəzi şairlər öz qəlbini yox,başqasının təkidi ilə, qələminə zəhmət vermişdir.

Qələmə, vərəqə bir əşya kimi baxmaq heyvan xislətli düşüncəlilərin işidir. İnsan bilməlidir ki, qələmin,vərəqin dili şairlərin

qəlbi, duyğusu və düşüncəsidir. Qələmi boş-boş fikirlər ilə, ucuz sözlər ilə vərəqlə qovuşdurmaq sanki, bir-birini sevməyən iki gənci məcbur edib ailə həyatı qurmaq üçün irəli sürülmüş bir haqsızlıqdır.

E.Ərklinin özü "Şeir və şair" şeirində şairliyin izahını kifayət qədər verir.

*Şair !*
*Aşiqsən sözə .*
*Sözündə gül ətri var.*
*Qələmindən su içir,*
*Şeir adlı laləzar.*

*Sən dünya sevimlisi,*
*Aşiqlər aşiqisən.*
*Qəlbindən keçənləri*
*vərəqə həkk edirsən.*

*Yaxşını yaxşı yazıb,*
*Pisdən kənar qaçırsan.*
*Gözəl, doğru şeirlə,*
*Hər gün süfrə açırsan.*

*Şair !*
*sənin ürəyin,*
*İki dünya boydadır.*
*Ruhun,fikrin şeirdə,*
*Hər gün,hər an toydadır.*

Bu kitab haqqında geniş fikirlərimizi yazmaq imkanımız var ikən,oxucuları yormamaq düşüncəsi və şeirləri oxucuların öz ixtiyarına buraxaraq qısa kəsirəm.

Şairə Emfira Ərkliyə bu məsuliyyətli yolda müvəffəqiyyətlər arzu edərək,yeni kitabın mübarək olsun deyirəm.

***Şair-qəzəlxan***
**Agah Xaçmazlı.**

## ŞAH SEVGİ

Sığmaz heç bir saraya,
Hər kəsin şah sevgisi.
Ən gözəli həyatdır,
O da,Allah sevgisi.

Nəsib olmayan bir eşq,
bir həyat əfsanəsi.
Sevib sevilmək özü
bir gənclik nişanəsi.

Yaşamasan həyatın
sənə olan payını,
İtirərsən ömrünün
bütün haqqı-sayını.

Keçmə gözəl Allahdan,
Səni qoruyan Odur.
Əgər naşükür olsan,
Son cəhənnəm yoludur.

## HAZIR OL

Düşmənin yanında dayanma aciz,
Asta yeriyəndə qurd basar səni.
Hazır ol,hər anda,hər məqamında,
Arxaya keçməyə qoyma düşməni.

Oxunu hazır tut, yayı nizamla,
Ölümcül vurmağa tarazlıq saxla,
Hücuma atılsa şikar qəfildən,
Məqamda qəlbini hünərlə oxla.

Çalış yaralama,vur onu ölsün,
Yaralı ilanlar tez qisas alar.
Döyüşdə üz-üzə vuruş kişitək,
Arxadan xainlər vurub alçalar.

## SƏNİ QƏPİYƏ SATACAQ

Get dünyanı bağrına bas,
Sənə çatan nə olacaq ?!
Qazancınsa bu dünyadan,
Xeyir əməllər qalacaq.

Pula sitaiş eyləmə,
Qucaqlama var-dövləti.
Şan-şöhrətə bel bağlama,
Saxla,qoru sərafəti.

Etibar yox bu dünyada,
Elm öyrən,odur vacib.
Oxu,artır biliyini,
Ol mehriban,sadə,nəcib.

Ac olanın çörəyin ver,
Libassıza libasını.
Hörmətini hər an saxla,
Qoru könül sevdasını.

Nanəciblər çoxalıbdır,
Yaxşıları aldadırlar,
Ürəyində "yağ" olanı,
Parçalayıb dağıdırlar.

Sevmə dünya sevənləri
Səni dünyada atacaq.
Yaşamağı pulda görən,
Səni qəpiyə satacaq.

**DOSTLARIM**

Sizsiz mənim günüm olmaz,
Dərdlərim də, heç azalmaz.
Ürəyimdə yağ da qalmaz,
Dərdimə dərman dostlarım!

Sevinərəm dost deyəndə,
Dağa dönür ürəyim də.
Bir gün sizi görməyəndə,
Qəlbim ağlar qan, dostlarım!

**RƏBBİM SƏNİ QORUSUN**

Sən qonaq gəl, qəlbim səni arzular,
Gələrsənsə ürək dinər, dil susar.
Baxışında içim yanar, qovrular,
Ey ciyərim,ürəyim!

Duam budur, Rəbbim səni qorusun.
Sanma səni unudub axtarmıram,
Uzaqda yox, mən yaxında sanıram.
Gəlməsən də, halına hey yanıram,
Sən həyatım,gərəyim.

Duam budur,Rəbbim səni qorusun.
Hər gün gözlər dikilibdir qapıya,
Bal dadmaqçün ümid qalıb arıya.

Sənsizliyin yarasın kim sarıya?
Sənsən əlim, biləyim.

Duam budur, Rəbbim səni qorusun.
Unutma ki, qəlbim sənə ağrıyır,
Qəribsən sən, gözüm səni arayır,
Ümidlərim hicran telin darayır,
Sən sığalım, küləyim.
Duam budur, Rəbbim səni qorusun.

## SƏNLİ YUXU

Elə yadıma düşdün,
Səni görmək istədim.
Ağrıları unudub,
Mən sevinmək istədim.

Bu gecə yuxumda da,
Sənlə söhbət edirdim,
Sənli olan yuxunu,
Həyat deyib sevirdim.

## AXIRDA ÇƏKƏRLƏR

Şöhrət çaşdırıbdır səni yamanca,
Qaraya ağ dedin,ağa da qara.
Haqqı gördüyün an çəkilmə dala,
Axırda çəkərlər məşhərə səni.

Unudulan ağac quruyar susuz,
Təamlı yeməklər bişərmi duzsuz ?
Yağan qar soyuqda olmayır buzsuz,
Axırda çəkərlər buzluğa səni.

Başını uca tut,əymə heç yerə,
Mən sənə demişəm,dinlə min kərə.
Dağdan yuvarlanıb görərsən dərə,
Axırda çəkərlər dərəyə səni.

Bir az deyingən ol, bir az utancaq,
Təzə geyim alar sonunda yamaq.
Dünyanı sevərək olmaz yaşamaq,
Axırda çəkərlər çarmıxa səni.

**ANA**

Könlüm istər səni,ana,
Yoxluğunla qəlbim yana,
Sənsizliyi damla-damla,
Yaşayıram yanağımda.

Vallah,səni gözləmişəm,
Unutmadım,özləmişəm.
Bu qəlbimi közləmişəm,
Atəş olub ocağımda.

Dağlar,dərdimi bir dinlə,
Al dərdimi bir az inlə.
Ana,sənsiz mən kiminlə,
Tapım gülüş dodağımda ?

**YOX OLAN SEVGİ**

Sevincimin pik nöqtəsi,
Yerə batdın,göyə çıxdın ?
Qəfil bir zəlzələ kimi,
Silkələndin qeybə çıxdın ?

Qırıldı bütün ümidlər,
Yoxa çıxdı uzun,gödək.

Bu qəlbimin arzuları
Səpələndi damlalartək.

**AĞ DONA QARA YAMAQ**

Baxmadıq həyata həyatımız tək,
Təmizlik etmədik düşüncələri.
Qərarsız,çarəsiz bəxtimiz bizim,
İlişib qalıbdır sərt döngələrdə.

Nə bir iş tapılmır, nə də bir dinclik,
Ailə dolanmır, qazan dolammır.
Fikirlər,zamanlar ayaqlaşmayır,
Körpələr çörək var, çörək yox, qanmır.

Necə bəs yaşayaq,necə yaşadaq ?
Necə dolandıraq,necə doyduraq ?
Bu köhnə dünyanın donu yırtılıb,
Ağ dona qaradan vurulur yamaq.

**KÖNÜL YARASI**

Dərdimə dərman sən,ay parası.
İnsanı yıxar könül yarası.
Eyləmə tüğyan,deyildir yalan,
Sevgimi alar könül yarası.

Getmə gözümdən,çıxma sözümdən,
Qəlbi dağıdar könül yarası.
Sən həyat idin,qol-qanad idin,
Səndən yadigar könül yarası.

Tənha,təkəm mən,sənsiz kiməm mən ?!
İnsanı üzər könül yarası.

## RUZİ QƏDƏRLƏDİR

Gözləmə yardımı sən özgələrdən,
Özün öz ruzini qazan,oğulsan.
Uzatmaz əlini istəsən yardım,
Yadlar kömək etməz suda boğulsan.

Ən yaxın adamın sənin jestinə,
Ehtiyac biləcək sən əl uzatsan.
Bağlı qapıların açılmış olar,
Ən gözəl əməllə yatmış oyatsan.

Sındırma qüruru çörəkdən ötrü,
İgidtək qamçıla,göstər atını.
Əlində olana şükr edib yaşa,
Ruzi qədərlədir,tanı qapını.

## AMİN DEYƏK

Yerdə çaylar,bulaqlar,
Göydə buludlar ağlar.
Torpağın qədrin bilək,
Sirrimizi o saxlar.
Qalıb özgə əllərdə,
Torpaq bizə dərd əkir.

İtib bizə ümidi,
Özü öz dərdin çəkir.
Torpağa yox, ürəyə,
Gör necə od vururlar.
Körpələrin ruzisin,
Əllərindən alırlar.

Ya Rəbb,qurbanın olum,
Qoyma bu dərdi yerdə.
Ver bəlasın düşmənin,

Düçar olsun o dərdə.
Kəsilsin yer üzündən,
Düşmənlərin nəsili.
Kim ki,amin deməsə,
Lal olsun onun dili.

**HƏMDƏMİN OLARAM**

Vaxt olar sevgilim,görüşəndə biz,
Dərdini o zaman açarsan mənə.
Kədərli günləri,qəmli anları,
Arxada buraxıb qaçarsan mənə.

Hər zaman dərdinə şərik olmuşam,
Mən varam,yox olar dərd-qəmin sənin.
Keçmiş çağlarında olduğu kimi,
Yenə də,olaram həmdəmin sənin.

**QORU**

Sən həyatımda özəlsən,
Çalış hörmətini qoru.
Cəhənnəm hər vaxt labüddür,
Gözəl cənnətini qoru.

Pislik qalır edənlərə,
Yaxşılıq et sevənlərə.
Hörmət qalır ərənlərə,
Verib qiymətini qoru.

Uzaq yollar yolçusuyam,
Qarə gözlər ovçusuyam,
Köhnə damlar qırçısıyam,
Et xalqa xidmətini,qoru.

Həyat eniş-yoxuş olur,
Səmada qartal qıy vurur.
Qışda açan güllər solur,
Bahar təbiyyətini qoru.

**OLMASIN**

Sevincimə bir şərab qat,
Dadından doymaq olmasın.
İçim o meydən məst olum,
Bir an oyanmaq olmasın.

At başından dərdi-qəmi,
Düşünmə özgə aləmi,
Ötür bir-bir hər ələmi,
Kədərlə yanmaq olmasın.

Oyat yuxudan özünü,
Dinlə saf ürək sözünü.
Açıb bəsirət gözünü,
Bax ki, usanmaq olmasın.

Yaralanmasın ürəyin,
Ailən olsun dirəyin.
Yerə dəyməsin kürəyin,
Toza bulanmaq olmasın.

**QƏLB ÇARƏSİ**

Əlim sinən üstə, döyüntüsündən,
Dağlar dilə gəldi, yer silkələndi.
Dağılma kainat,səbr eylə bir az,
Qəlbim nalə çəkdi,kədər ələndi.

Yaramın üstünə yarələr gəlir,
Məlhəmim ağ deyil,qarələr gəlir.

Hər kəsə dərd gəlir,çarələr gəlir,
Bircə mənim qəlbim çarə diləndi.

**AĞ-QARA DON**

Geydiyim qara köynək,
O matəmdən nişandır.
Ağ parçaya bürünmək,
Kəfən olub qalandır.

Hər iki rəng boyanıb,
Müsəlmanın baxtına.
Qara geyib sınıxma,
Ağ rəng şəhid taxtına.

Şərəflə yaşayanlar,
Şərəflə də,köçürlər.
Şərəfli insanları
Yad eləyir könüllər.

**SƏNİ SEVDİYİMDƏN**

Səni sevdiyimdən çox istəmişdim,
Sən yoxsan əzrail dost olub mənə.
Sevdiyim,seçdiyim getdiyi andan,
Sevgi tək əzrail tez qonub mənə.

Əlini əlimə uzat, çəkinmə.
Yazığın gəlməsin əzrail, mənə.
Nə lazım qəbirçün başa sal məni,
Apar sevgilimə, apar mədfənə.

Ayrılmaq çətindir,inan sən mənə,
Mən onun yolunda hey sürünərdim.
Yoxluğun üzü tək qara olsaydı,
Qara kəfəninə tez bürünərdim.

## İNAMLA YAŞA

İnamın itibsə, sözün keçmirsə,
Deməli inamsız yaşamısan sən.
Həyatda hər şeyi qaytarmaq olur,
Təkcə vicdanını itirməyəsən.

Həyatda vüqarla yaşamaq çətin,
Ər oğul başında papaq gərəkdir.
Qeyrətdən dəm vurub danışanların,
Qeyrəti saf, təmiz, dümağ gərəkdir.

## XƏYALLAR SÜFRƏSİ

Artıq qocalmışıq,ötüşdü illər,
Hansı məhəbbətdən söz açmaq olar ?
Eşq də, məhəbbət də,puça çıxıbdır,
Sevgidən danışsaq gözlərmiz dolar.

Üzdə qırışlar da çoxalıb artıq,
Ötən günlərimiz qaldı arxada.
Gələcək günləri ötürməməkçün,
Xəyallar süfrəsi açaq daldada.

Sevdim bircə kərə,daha bəsimdir,
Əvəzin verəcək kimi axtarım ?
Mənim içimdədir əsil məhəbbət,
O mənim milvarim,dövlətim,varım...

Unutma hər gülüş bir ömür verir,
Bal sevinc ürəkdə yurd-yuva salır.
Hər şirin sözlərin al dodaqlarda,
Arıya bal verən çiçək tək qalır.

## QURBANIN OLUM

Qəlbimi gəl ovut şirin sözünlə,
Həyatı bəxş eylə qarə gözünlə,
Varlığın mənimdir sənin özünlə,
Sənin varlığına mən qurban olum.

Dünyanı fəth etdim sevgi içində,
Dərdi də, qəmi də,boğdum içimdə.
Gəl qoyma sən məni çətin seçimdə,
Gəl sənə sarılım, heyranın olum.

## MƏN ALLAHIN BƏNDƏSİYƏM

Ağrı,acı,burax məni,
Həyat yolun davam edim.
Səadətin şirinliyin,
İcazə ver dadım gedim.

Qoyma məni şux yerişdən,
Xoş baxışdan məhrum olum.
Həyat sürüm sevinclə mən,
Öz özümdən məmnun olum.

Mənə lazım olmayanı,
Bu yolda da qoyum gedim.
Qismətimə düşənlərdən,
Alım,yeyim,doyum,gedim.

Mən Allahın bəndəsiyəm,
Dünyadə yox zərrə gözüm.
Bietibar aldatmamış,
Dünyanı tərk edim özüm.

## QƏLBİNƏ SEVİNCİN SƏSİNİ GÖNDƏR

Mən sənə nə dedim xətrinə dəydi?
Gözündən silinməz küslü baxışlar.
İncik olduğundan bir xəbər verir,
Yanaqda göz salan damla naxışlar.

Sıxma ürəyini,dağıt qəmini,
Qəlbinə sevincin səsini göndər.
Qismətin bağında tale meyvəsi,
Mənimdir deyərək sevincəm, tez dər.

## AĞRIN ALIM

Ver mənə əlini,
Ay ağrın alım.
Gəl kömək eyləyim,
Qeydinə qalım.

Mən sənə inanım,
Sən də ki,mənə.
Sənə qurban olum,
Ey gözəl yarım.

## ƏBƏDİ VARLIQ

Yazdığım şeirlər məlhəmim kimi,
Hopubdur ruhuma,canıma mənim.
"Gecikmiş məhəbbət" tarixidir bu,
Həkk olub qəlbimə,qanıma mənim.

Həyat çox qəlizdir, baş açan da yox,
Eyləyir insanı insana möhtac.
Xəfif bir küləkdən düşən yarpaqtək,
Torpaqda yox olur, dərdə yox əlac.

Məhəbbət yazılıb, ünvanı sən,mən,
Yoxluğun əlindən sevgi almışıq.
Dünyada var olan sevgimiz ilə,
Əbədi varlığın yolun salmışıq.

## UCA ALLAH, KÖMƏK EYLƏ

İsladır yağış torpağı,
Yuyur göz yaşım yanağı,
Ürək qəmdən deyir ağı,
Uca Allah kömək eylə.

Bizdən aslı deyil həyat,
Əlindədir bu kainat,
Yaşat bizi asan,rahat,
Uca Allah kömək eylə.

Yox olar bu qəm-kədərim,
Nurlu olar hər səhərim.
Tək Səndədir ümidlərim,
Uca Allah kömək eylə.

## ÖLÜM SƏNİN QOLLARINDA

Qoy mən ölüm sənin o qollarında,
Özünə sıxaraq qucaqla bərk-bərk.
İsti nəfəsini duyum ölməmiş,
İsinim qoynunda döyünsün ürək.

Qoy mən ölüm sənin o qollarında,
Aparsın küləklər ruhumu mənim.
Sənli xəyallarım laləzar olub,
Cənnəti əks edər bağım, çəmənim.

Qoy mən ölüm sənin o qollarında,
Qəbrimi qəlbində qazıyam gərək.
Dünyanı tərk edib səndə ölərəm,
Dünyadan böyükdür səndəki ürək.

## DÜNYA SANKİ ÖLÜMDÜR

Həyatla çarpışan çətin məqamda,
Ən doğma insanı axtarır insan.
Canıyla əlləşib əziyyət çəkən,
Gözləyir əziz kəs gələcək o an.

Sanki,deyilməmiş bir ömür sözü,
Bircə o anında söyləcəkmiş.
Ağrılar içində qalıb çarəsiz,
Düşünmür ölməyi,neyləyəcəkmiş ?!

Bu dünya yaranıb sanki ölümçün,
Yaşayır insanlar vidalaşmağa.
Əzab-əziyyətlə qalan bir insan,
Elə bil yaranıb hey dalaşmağa.

## ÖZÜN YAŞA

Həyat şirin,ömür acı,
Görməyənlər görsün onu.
Sevgi olub başın tacı,
Sevməyənlər sevsin onu.

Hər addımda varsa həyat,
Demək sevgi yollarıdır.
Bu dünyanı qucaqlayan,
Eşqin güclü qollarıdır.

Get məhəbbət yollarını,
Bu yol bitməz ömür boyu.
Böyük həyat,gen dünyadır,
Özün yaşa ancaq onu.

**QEYRƏT İLƏ**

Bu həyatın qədrin bilin,
Böyüklərə hörmət edin,
Möhkəm qurun gələcəyi,
Kiçiklərə qiymət verin.

Tanıtmasan sən özünü,
Kim eşidər düz sözünü ?
Çıxararlar çüt gözünü,
Dost olarsan zülmət ilə.

Uçurma bir quş yuvadan,
Danışma boş söz havadan.
Üz döndərsən el-obadan,
Yox olarsan dəhşət ilə.

Əyri baxış,əyri nəzər,
Öz içindən səni əzər.
Ruh vicdandan kənar gəzər,
Vurmaz ürək qeyrət ilə.

**ÇALIŞ GECİKMƏ**

Gəl belə danışaq;
Səni gözlərəm.
Bircə şərtim budur,
Gecikməyəsən.

Bax ola bilər ki,
həmin dəqiqələr,
Bizim taleyimizi
həll eyləyərlər.

Çox düşün,
çox daşın,
yanlışlıq etmə,
Söz verdin tələs sən,
çalış gecikmə.

Ayrılıq rahatdır,
qovuşmaq çətin,
Həmişə görüşə vaxtında gəl ki,
Bizi ayırmasın o gecikməyin.

**BURAX XƏBİSLİYİ**

Bu gözəl dünyanı əlimdən alıb,
Paxıllıq deyilmi insanı yıxan?!
Hər küncdən-bucaqdan ürəyi xoflu,
Kinli pəncərədən həsrətlə baxan...

Nədəndir insanlar çox xəbisləşir?!
O doğru olmadan haqlı danışır.
Hər şey mənimkidir, mənimdir! - deyib,
Dünyanın ovuna çıxıb yarışır.

Üzünü şöhrətə tutan, ey xəbis !
Alnına yazılıb sənin xəbislik.
At sən peşəni, yaşa vicdanla,
Burax xəbisliyi eyləmə tərslik.

## İNSANLIQ YOLU

Kim bilirdi bu dünya,
Necə ağır, çətindir.
İnsanları müxtəlif,
Həm aciz, həm mətindir.

İnsanlar düşünmədən,
Hər yükü daşıyırlar.
İnsanlığı dərk edib,
Bəxtəvər yaşayırlar.

Haqsız savaşlarında,
Gah sındı,gah əyildi.
Haqq savaş olsa idi,
O, qalib gələcəkdi.

İnsanlığı dərk edən,
Bir an təəssüf etməz.
Pislik olan yol ilə,
Gələcəyə o getməz.

## SEVGİSİZ HƏYAT

Niyə bu insanlar naxələf olur?
Verdiyi sözlərə xilaf çıxırlar.
Bəlkə ruziləri haramdan gəlir?
Onlar haramlara halal baxırlar.

Halallıq düşünüb sevginən yazan,
Çoxluğun yanında azı olarmı?
Sevgini dərk edən sevgisiz qalsa,
Quru həyatından razı olarmı?!

## HƏR ANIN ÖZ BƏXTİ VAR

Hər günü öz taleyi,
Öz anı, öz bəxti var.
Həyat müstəvisində,
Hər kəsin öz təxti var.

İnam çox şey həll edir,
İmansız olmayasan.
Əməllərin fərqini,
Dərk edib anlayasan.

Geyimi olmayana,
Geyim tapıb verəsən.
Ac qalıb zar edənə,
Yardımını edəsən.

Ana,bacı, qardaşın,
Xətrinə dəyməyəsən.
Ata böyüklüyünü,
Hər an da hiss edəsən.

Əzizləri vaxtında
ziyarət eyləyəsən.
Qonum-qonşunu hər an,
Özüntək dinləyəsən.

Saymayanın ağası,
Sayanın qulu ol sən.
Çalış qısa müddətə
Çox şeyi həll edəsən.

## LAL BAXIŞLAR

O gözlər, o qaşlar, o lal baxışlar,
Məftun etdi məni o hər baxanda.
O qara gözlərdən çıxan qığılcım,
Yandırıb kül edir baxdığın anda.

Ayırmaq istədim baxışlarımı,
O lal baxışlardan, mən bacarmadım.
Yumdum gözlərimi nəsə alına,
Ayrılıq anları dayanammadım.

Sevmək,qarşılaşmaq,bir də,baxışmaq,
İçimizdən keçən hissi bölüşmək,
Yenə arzuladım, bacarmasam da,
Yenə də,baxışmaq,yenə görüşmək.

Gənclik illərimin ağrı-acısı,
Məni buraxmadı o hislər rahat.
O lal baxışlarda susdu ümidlər,
Ayrılıq anları yetişdi heyhat.

Bu mənim qismətim,bəxtim,taleyim,
Yenə də,tək qaldım özüm özümlə.
Mənim kədərimlə sevişdi bu gün,
Kağız qələmimlə,sözüm sözümlə.

## ŞÜKÜR SƏN YAŞAYIRSAN

Allah bir gözəllik veribdir sənə,
Hər şeyə səbr edib yaşayırsan sən.
O gözəl qəlbinə elə vuruldum,
Səni görən günə qurban olum mən.

Keçən günlərimiz bir möcüzədir,
Yaşayır kinotək xatirələrdə.
Nə yaxşı qorudu səni Allahım,
Düşmədi sevgilin çəkilməz dərdə.

İlləri ötürdük hiss eləmədən,
Hər dəfə qarşında lal dururam mən.
Düşüncəm daxili fikirlərimlə,
O saf xasiyyətə vuruluram mən.

Çox şeyi düşünür insan hər zaman,
Sevib sevilməyin yollarını da.
Hər addım sevərək, ayrılanları,
Bir qorxu içində yad edir o da.

Yaxşıdır,gözəldir sevmək,sevilmək,
Duy vüsal anında məhəbbət dadın.
O hislər,duyğular,həsrət,hicran,eşq,
Görüş əsnasında anla,ey qadın!

Hər yaxşı,pis günlər arxada qaldı,
Hər şeyi hər zaman xatırlamırsan.
Hər an xəyalında düşüncənlə sən,
Şükür bu günlərə sən yaşayırsan.

## SİRLİ PALAN

Kasıbın nəyi var ?
Eli,obası.
Allaha səcdəsi qəlbinə bağlı.
Ailə sevinci,tutduğu yolu,
Həmişə ucalıb olacaq haqlı.

"Duz çörək düz çörək",-deyib atalar,
Ər oğul dik deyər haqq olan sözü.
Pulu yoxdursa da ,qeyrəti ki var,
Atar o atəşə yandırar özün.

Həyatda yaşamaq cəsarətli iş,
Nə qədər qəlizsə,o qədər asan.
Bu geniş dünyada,kiçik evində,
Rahatca yatağı döşəyi palan.

Dik tutar qürurun,əyməz heç zaman,
Sirli göz yaşları o palandadır.
Heyif sarayların yoxdur xəbəri,
Dərd dolu insanı bu palan dadır.

## BİR DƏFƏ DƏ

O xoş anlarımı düşünərək mən,
Baxıram həsrətlə sənin tərəfə.
O bir unudulmayan xatirə olub,
O ana qayıdaq biz bir dəfə də.

Lal baxış təsiri çox qəribədir,
Qəlbimi incidir mənim birbəbir.
O elə sevgidir qoyub qəlbə sirr,
O sirri bölüşək biz bir dəfə də.

Şair öz dərdini yazır qələmlə,
Bəs mən öz dərdimi yazım nə ilə ?
Ölürəm adını alanda dilə,
Həyata qayıdaq biz bir dəfə də.

## TALE YAZISI

Nə qədər əzizdir bu sima mənə,
Yazıb əllərimlə salım canıma.
Yenə də,Uff...-deməz,doymaz bu qəlbim,
Baxdıqca o qəliz qəmli simana.

O qədər əziyyət çəkdim həyatda,
Çətinlik mənimçün əzab deyildir.
Taletək alnıma yazılan "roman",
Sanki,mənim deyil,bir özgənindir.

İllər öncəsində çalışdım yazdım,
Yazsam da sonradan peşiman oldum.
Bütün olanları təkrar oxuyub,
Bir kibrit çöpüylə alovlandırdım.

İndi peşimanam elədiyimə,
Həyatı yenidən başlamaq olmur.
Bir onu bildim ki,tale yazısın,
Yandırsan da onu heç pozmaq olmur.

## KÖRPƏ ÇİÇƏK

Körpə çiçək,səni kim təkləyibdir ?
Qəm tikanı ürəyinə giribdir.
Səni sevən ürək yanıb deyibdir ;
Bu soyuqda çiçək çöldə nə gəzir?!

Hər insanın çiçək kimi ətri var,
Qar-yağışdan qorunacaq çətri var.
Hər çiçəyin gözəl kimi xətri var,
Bu ağrıda ürək çöldə nə gəzir?!

Ürəyimin parçasıdır çiçəklər,
Qönçələrin anasıdır çiçəklər,
Anaların aynasıdır çiçəklər,
Yetim kimi o tək çöldə nə gəzir?!

Bu soyuqda səni çölə atanlar,
Olur körpə balasını satanlar,
Et körpələr imdadına çatanlar !
Bir ağızdan deyək,Çöldə nə gəzir?!

## AĞLAMA

Səni həyat ağladır,
Sən ki,heç ağlamazdın.
Göz yaşınla çay kimi,
Coşmazdın,çağlamazdın.

Ağlamaqla,sevgilim,
Bu qəlbimi dağlama.
Ümidlərə açılan
qapıları bağlama.

## QƏLBİMİN HƏMDƏMİ HARDA QALMISAN?

Mən sənin qəlbinə yol eyləmişəm,
Yeməyib,içməyib hey gözləmişəm,
Deyərək sözləri seçmələmişəm,
Sən mənim ruhumu eşqlə almısan,
Qəlbimin həmdəmi, harda qalmısan?

Gizlədir qəmli söz bir kitab ağı,
Hər incə söhbətdə vardı bir yanğı,
Ciyərimə od salıb sevgi ocağı,
Sən mənim içimdə bil, ucalmısan,
Qəlbimin həmdəmi, harda qalmısan ?

Məhəbbət bir mərəz,dərdi böyükdür,
Eşqi həzm eyləmək özü böyükdür.
Deməzdim qəlbində sevgi sönükdür,
Sən də bu eşq ilə, hey saralmısan,
Qəlbimin həmdəmi, harda qalmısan ?

## VÜSAL HƏSRƏTİ

Mən quru bir ağaca
söykənib oturmuşam.
Gözlərim dikilib yola,
Ümid ilə durmuşam.

Yollar işıq bərq vurur,
Durub xəyal gözümdə.
Bu yollara bağlanıb,
Yol olmuşam özüm də.

Hicran məni qovurur,
Tələsirəm görməyə.
Dadıma çat,sevgilim,
Qoyma məni ölməyə.

## ŞEİR VƏ ŞAİR

Şair !
Aşiqsən sözə.
Sözündə gül ətri var.
Qələmindən su içir,
Şeir adlı laləzar.

Sən dünya sevimlisi,
Aşiqlər aşiqisən.
Qəlbindən keçənləri
Vərəqə həkk edirsən.

Yaxşını yaxşı yazıb,
Pisdən kənar qaçasan.
Gözəl,doğru şeirlə,
Hər gün süfrə açasan.

Şair!
sənin ürəyin,
İki dünya boydadır.
Ruhun, fikrin şeirdə,
Hər gün, hər an toydadır.

## DƏRDLİ BOXÇA

Gözlərimə yuxu getmir,
Düşüncələr sıxır məni.
"Min fikir bir borcu ödəmir"'
Xatirələr yıxır məni.

Sadalayıb bir-bir dərdi,
Bir boxçaya toplayaram.
Bərk-bərk sıxıb ağzını da,
Ciyə ilə bağlayaram.

Mənim içimdədir dərdim,
Görünməyib ortalığda.
Bu dərdi-sər büküb məni,
Şux görünür qayalığda.

Ara-sıra ağlayaram,
Mən boxçanın qəm halına.
Bu boxça heç rast gəlməsin,
Bu dünyanın xoşbaxtına.

## İSTƏDİM ŞƏKLİNİ ÇƏKİM

Ürəyimdən keçdi birdən,
İstədim şəklini çəkim.
Ağ vərəqdə tünd qələmlə,
Arzularım oldu tilsim.

Çaldım-çapdım vərəq üstə,
Soldan sağa qaraladım.
Simandan iz tapmadıqda,
Ah çəkib qəm sıraladım.

## ALLAHDAN ŞİKAYƏT NİYƏ EDİRİK?

Taledən,həyatdan,qismətimizdən,
Nədənsə, a dostlar,çox gileyliyik.
Allahdır yaradan, bizsə dağıdan,
Allahdan şikayət niyə edirik?!

Zəhmətlə qazanan,yaşayan da biz,
Əyri nə eyləsək sandıq onu düz.
Ağlımız var isə,biz düşüncəsiz,
Allahdan şikayət niyə edirik?!

Hər türlü işlərdən başımız çıxıb,
Etdiyimiz əməllər bizləri sıxıb.
Bizləri həyatda səhvimiz yıxıb,
Allahdan şikayət niyə edirik?!

Taledən şikayət edən,ey insan !
Axtarıb yaxşını tapırıq asan.
Dünyadə tək varlıq olduğun zaman,
Allahdan şikayət niyə edirik?!

## BİR DİLLƏNSƏNƏ

Canımın parçası, haralardasan ?
Bilmirəm yaxında, uzaqlardasan...
Bir soraq eylə ki, buralardasan,
Gəlim mən yanına, ünvan versənə,
Ürəyim qubardır, bir dillənsənə.

Nə qədər axtardım tapmadım səni,
Yolundan eylədim gəlib-gedəni.
Barı səsin gəlsin, bir eşit məni,
Artıq dözmək olmur, bir hay versənə,
Ürəyim qubardır, bir dillənsənə.

Qocalmışam, səni könlüm istəyir,
Gözlərim yolunu hər an gözləyir.
Xəyal yollarımda səni izləyir,
Dözüm yox canımda, cavab versənə.
Ürəyim qubardır, bir dillənsənə.

## ARTIQ MƏQAMDIR

Torpağın dərdini çözə bilmirəm,
Yadlar ayaqlayıb dözə bilmirəm.
Göz yaşım dəryadı, üzə bilmirəm,
Torpağın neməti bizə haramdır,
Səhvləri düzəldək, artıq məqamdır.

Vicdan əzabını veribdir bizə,
Allahdan bəladır,gərək ki,dözə,
"Qisas yerdə qalıb",-deyib üzmüzə,
Düşməni məhv edək,zaman tamamdır.
Səhvləri düzəldək,artıq məqamdır.

Qəlbimiz sızlayır bir quru sözdən,
Artıq hiss olunur düşürük gözdən,
Düşmən qurtarammaz canını bizdən,
Qələbə ilk öncə hünər,imandır,
Səhvləri düzəldək artıq məqamdır.

## BƏDGÜMAN OLMA

Dərdini çəkərmi aram gecələr?
Bağlayıb səhərə inam gecələr,
Şakir ol,zakir ol tamam gecələr,
İnamsız yaşayıb bədgüman olma.

Özün düşüncənə bir az yol eylə,
Çox geniş fikirləş, sağ və sol eylə.
Saleh əməlləri çalış bol eylə,
İnamsız yaşayıb bədgüman olma.

Nə aciz ol həyatda,nə də ki,naqis,
Oxu kitablardan xeyirli hədis.
Göstərmə özünü bu qədər aciz,
İnamsız yaşayıb bədgüman olma.

Hörmət qoy hörmətə qalxasan özün,
Kəsərli olacaq haqq olan sözün.
Arxayın-arxayın zillənib gözün,
İnamsız yaşayıb bədgüman olma.

Qoy səndə tapsınlar haqqın yolunu,
Çırmala köyməyi qaldır qolunu
Dinlədib uşağı,dinlə ulunu,
İnamsız yaşayıb bədgüman olma.

## HƏZİN MUSİQİ

Oturmuşdum yuvamda mən ağa kimi,
Sənə lazım idi uçurdun məni?
Titrətdin qəlbimin incə tellərin,
Sinəmdə mizrabla çalınan kimi.

Dərd telin kökləyib sıxır sinəyə,
Sevgi etirafın edən aşiqlər.
Qəfil əsən teldən çıxan sədalar,
Hansı musiqidən de,verər xəbər?!

Titrəyə-titrəyə çalınan mahnı,
İnsanı duyğuya verməyə yetər.
Aşiqlə məşuqu həzin musiqi,
Götürər dünyadan uzağa çəkər.

## VURDUM

Sən məni yaratdın yol tutum düzgün,
Xeyirli əməllər,vərdişlər üçün.
Mən bəs nə eylədim,ey Rəbbim,gördün ?
Ən böyük ziyanı özümə vurdum.

Baxmadım acizəm,ya da,güclüyəm,
Hər xeyrə əl atdım,ziyan verdi qəm.
Göndərdum ovumun dalınca hər dəm,
Yaydan çıxan oxu dizimə vurdum.

Bütün arzularım çin olsun deyə,
Baxmadım sinəmin yaralərinə.
Qəm adlı güllənin istəyini də,
Alnımdan qaçırdıb gözümə vurdum.

Dosta da,inandım,tanışa da, mən,
Sonda göz yaşlarım töküldü dən-dən.
Hər bir maniyədən ziyansız,nədən,
Sadə bir tikanı sözümə vurdum ?!

## BƏRİ GƏL

Ovçuyam,şikarım sənsən,bəri gəl,
Sevgiynən nişanə almışam səni.
Vurğunu olduğum ceyranımsan sən,
Gəl mənim səmtimə şad eylə məni.

Yanar bir ürəyəm,vurulmuşam mən,
Bəri gəl, ey yüz il axtardığım kəs !
Sevgi yollarında gəzmişəm səni,
Gözə görünməzim,gəlməyə tələs.

Burda seçimimə nişanə yoxdur,
Sevgidə ağılla seçim ki,olmur
Ürək öz sevdiyin görüncə, şəksiz,
İki göz oynadıb qıyılıb durur.

Şükür ki,tapmışam istədiyimi,
Mənimçün ürəyin seçdiyi gözəl.
Əsas məhəbbətdir,elə deyilmi ?
Allahdan payımsan,durma,bəri gəl !

## CAN ŞİRİN,ÖMÜR GÖZƏL

Nələr çəkdim həyatda,
Sevincim məndən döndü.
Gün gələr həyat sönər,
Gedəcək yol göründü...

Həyat şirin,heç zaman,
Doymaq olmaz dadından.
Dünyaya bağlanma çox,
Uduzarsan həmin an.

Bir dünya malın hədər,
Kimə lazım bu qədər ?!
Mal-dövlət nəyə dəyər ?
Dünyadır gəldi-gedər.

Can şirin,ömür gözəl,
Həyat sənə qoymaz məhəl.
Yaz ömrün olub payız,
Edər torpağa xəzəl.

## YADDAN ÇIXMAZ QARABAĞ

Sən dağa bax,qara bax,
Ürəyimdə dağa bax.
Bu qədər əzablara
olarmı heç yaşamaq?
Yaddan çıxmaz Qarabağ.

Oğullar dözə bilmir,
Bir yolu çözə bilmir.
Tabedir komandana,
Orda sönüb od-ocaq.
Yaddan çıxmaz Qarabağ.

Ağılar deyə-deyə,
Yerləşdilər güneyə.
Xocalının dərdinə
susarmı heç dil-dodaq ?
Yaddan çıxmaz Qarabağ.

Azərbaycan əsgəri,
Ocaq seçib səngəri.
Əmir gözləyir hələ,

Əlində yaraq,bayraq...
Yaddan çıxmaz Qarabağ.

Zəfər uzaqda deyil !
Şuşa uzaqda deyil !
Biz qovarıq düşməni,
Azad olar hər ocaq,
Yaddan çıxmaz Qarabağ.

Azərbaycan,Türkiyə,
İmza atıb birliyə.
Bayrağını Şuşanın
zirvəsinə sancacaq.
Yaddan çıxmaz Qarabağ.

Allah! Bizə ol kömək.
Şad olsun qəmli ürək.
Gələn yaza in şə Allah,
Çıxarıq biz üzüağ.
Yaddan çıxmaz Qarabağ.

## YADINA DÜŞƏR

Dağların başını duman,çən alsa,
Kölgəsi yamaca,arana düşər.
Sevincin nəşəsi gözlərin üstə,
Qəmin ah-naləsi başına düşər.

Qəmdən uzaqlaş sən,budur vəsiyyət,
Çəkərsən hər dərddən özün əziyyət.
Xalqın dərdinə də,edəndə diqqət,
Ağlaya,sısqaya yadına düşər.

Ağladın,dadına yetənin yoxdur,
Ac qaldın,çörəyi verənin yoxdur,
Sevgidə üzünə gülənin yoxdur,
Bu halın de nə vaxt yadına düşər ?
Yolunda can qoyan insanı göstər.

## SUYA AÇILIR DƏRDLƏR

Açdım gözlərimi yenə bu səhər,
Səni xəyallarım görür birtəhər,
Bənizin soluxmuş,gözlərində qəm,
Yanaqda göz yaşın,dodaqda kədər.

Ağlamaq istədim,mümkün olmadı,
Ürəyim ağladı,gözüm dolmadı.
Bahar qışa döndü,soldu gülüstan,
Amma qar çiçəyin bil ki,solmadı.

Yol tapıb əzabla ümüdlər qaçır,
Yanaqda damlalar çizgilər açır.
Geridə inləyib qalan arzunu,
Hamı deyib suya dərdini açır.

## GÖZLƏNİLMƏZ GƏLƏN QONAQ

Gözlənilməz gələn qonaq,
Sevincimə son qoyubdur.
Gözlənilməz gələn qonaq,
Bu qəlbimi hey oyubdur.

İllər öncə hiss etmədən,
Yerləşmişdir saf qanıma.
Gözlənilməz gələn qonaq,
Salıb ağrılar canıma.

Neçə vaxtdır buraxmayır,
Soyuq duyğu sıxır məni.
Çiçək açan arzuları,
Məhv eyləyib yıxır məni.

Damarımda qanım donub,
Ürək yolun kədər tutub.
Həyat eşgi yağış kimi,
Uçur,gözlərimdən uçur.

**BELƏ YAXŞIDIR**

Sevincinə şərik oldum,
Sevincim sənə dərd oldu.
Ürəyimi sənə açdım,
Ürəyin buna pərt oldu.

Doğsa da günəş şərqindən,
Qərbin ədası naxşıdır.
Ona gələn qada-bəla,
Gəlməsin !
Belə yaxşıdır.

**TAPARSAN MƏNİ**

Sevincim səninlə,dərdim səninlə,
Məhəbbət günəşli qəlbim səninlə,
Eşqim,məhəbbətim,sevgim səninlə,
Harda olmuş olsam taparsan məni.

Aç geniş qəlbində,sinəndə axtar,
Məndən qeyri bir kəs de,qəlbində var ?
Baxma sağa-sola,geriyə,ey yar!
Önündə hər zaman taparsan məni.

Demə ki,görmürəm,gözümdə var nəm,
Axtar nəfəsinlə,nəfəsindəyəm.
Desən,ürəyimdə yurd salıbdır qəm,
Qəm mənəm,ürəkdə taparsan məni.

Çiçəklər içində mən elə güləm,
Ətrimlə taparsan sən məni o dəm.
Gülüstan olsa da bütün bu aləm,
Taparsan,taparsan,taparsan məni.

## KÖRPÜNÜN ÜSTƏ

Rastlaşdıq balaca körpünün üstə,
Qalmış köhnə yara sinəmin üstə,
Yol verdi keçməkçün,keçə bilmədim,
Həyəcan mənimlə durmuşdu qəsdə.

Sevgi tellərimiz çoxdan qırılmış,
Qəlbimdə tək adı əfsus ki,qalmış,
Gecəni adlayıb çıxan günəş tək,
Onu görən zaman üzüm saralmış.

Ehh, Dünya !
Bu sevgi səndə oyundur,
Sevincin yolları necə uzundur,
Qəmim məni boğdu bir addımında,
Düşündüm,qiyamət çatıb, sonundur.

İstədim əlindən tutub söyləyim ;
"Ey mənim dünyalar qədər sevdiyim !
Niyə ayrılığı yaşatdın mənə ?
Sənsizlik çətindir,indi neyləyim ?"

Sən xoşbəxt olardın,mən də bəxtəvər,
Sürərdik bu ömrü sevdiyin qədər.

Səadət evinin sakini olub,
Nə dərd-qəm çəkərdik,nə də ki, kədər.

Kimsə əvəz etməz səni həyatda,
Əlçatmaz arzumsan bu kainatda.
Sənin də qəlbinin arzusuyam mən,
Ver mənə əlini arzuna çat da.

**HAMININ ÜRƏYİNDƏN OLAN**

Bir gecə möcüzə yarada Allah,
Yerə-göyə sığmaz sevincim,Vallah.
Desinlər düşməndən alındı torpaq,
Qalmadı bu xalqın ürəyində ah.

Hər adam ürəklə verir salamlar,
Sevinir,şadlanır gülür adamlar.
Hərə öz işinə tələsir yenə,
Həlal baş qaldırır,ölür haramlar.

Fabriklər,zavodlar siqnallayırlar,
Yenə də,hamını işə çağıra.
Kəndlərdə hərə öz mal-qarasını,
Örüşə çıxarıb kaş yorulmaya.

Şəhərdə yaşayan səhər gülərüz,
Yollana fərəhlə öz işinə düz.
Bazar günlərində Bulvara çıxa,
Edə istirahət qəmsiz,kədərsiz.

Kaş ki,qayıdaydı o günlər geri,
Olmaya heç kimin bir də dərd-səri.
Nə olar,Allahım,eşidib bizi,
Sən geri verəydin köhnə günləri.

## SEVGİ ETİRAFI

Dünyanı dolaşdım,gəzdim hər yanı,
İstədim bir gözəl həyat bəxş edim.
Ürəkdən ürəyə ürəklə girib
Heyif ürəyimə girə bilmədim.

Ölümcül məhəbbət,xəstə eşq ilə,
Qəlbinə yol tapıb girmək istədim.
Bir zaman səninlə sövdələşdiyim,
Həmin o anlara dönmək istədim.

Çox heyif illəri verdin sən bada,
Arxaya baxmadan bir dəfə belə.
Namə də yazmadın,soraq bilmədin,
Bir dəfə adımı almadın dilə.

Ən asan bir yolu seçərək birdən,
Ölüm ! Apar məni !-deyib,düzəldin.
Seçib bu yolunu bir yolluq gedib,
Məni bu ağrıda qoymusan,neyçin?

Sorağın gəlmədi bir daha sənin,
Qəlbim sızıldadı sinəmdə hər an.
Mən sənin canındım,məndən gedəni,
Nə gərək sevgisiz ömür edə can?!

## GETDİYİN YOLLARI UNUT

Belə tanımazsan heç vaxt məni sən,
Gözünün içində özləsən belə.
Gizli məqamlardan uzaqlaşdırıb,
Qəlbini yararaq gizləsən belə.

Şıltaq birisiyəm,məni tanı sən,
Hislərə uymaram mən heç bir zaman.
Nə qədər gizlicə saxlasan da,sən,
Özünü biruzə verirsən o an.

Oyuncaq deyiləm,mən ki, canlıyam,
Bu sevən ürəyim subut, əzizim.
Getmə gözlərimdən, sənsiz mən heçəm,
Getdiyin yolları unut, əzizim.

**VƏTƏN OĞLU**

Vətən, adın ürəyimdə,
Dərdin mənim kürəyimdə,
Vətənimin əsgəriyəm,
Nurun qoşa bəbəyimdə.

İgid əsgər balasıyam,
Bu tonda da qalasıyam.
Qisasımı alasıyam,
Andım vardır çörəyimdə.

Doğulmuşam qisas üçün,
Vuruşacam hər an,hər gün.
Qazi ollam Vətən üçün,
Allah olar köməyimdə.

Çaqqaldan çaqqal törənər,
Qurd əlində çaqqal ölər.
Qurd elinin bəxti gülər,
Budur arzu-diləyimdə.

## NİYƏ GEDƏNLƏRDƏN BİRİNCİ OLDUN?

Gəlib həyatıma sevincim oldun,
Ürək-dirək verən dür-incim oldun.
Arzular çin olub aşıb-daşanda,
Niyə gedənlərdən birinci oldun ?

Bu geniş dünyanı sən dar eylədin,
Ömürlük yerini məzar eylədin.
İndi yaş torpağda uyuyan zaman,
Məni ümidsizliyə vadar eylədin.

Hərənin öz yolu,öz ruzisi var,
Hər kəsin qəlbində öz arzusu var.
Pərdələr çəkilən zaman görərsən,
Hər kəsin sevgisi,eşq duyğusu var.

## ÇAĞLAYAN,AĞLAYAN DƏNİZ

*(Dənizdə cəsədi tapılmayan neftçilərə.)*

Çağladı dənizim,coşdu dənizim,
Yaralı qəlbimin yarası qopdu.
Yenə xəbər yoxdur səndən,əzizim,
Qəlbimə dünyanın ağrısı hopdu.

Ləpələr çırpınır sahilə doğru,
Gurultu yaranıb dəniz içində.
Külək də,sovurur çöl-biyabanı,
Bakı toza batıb təmiz içində.

Ay Allah,bəndənin yetiş dadına,
Neftçi oğullara ürəklər yanır.
Gecədən sübhədək xalqımın gözü,
Dənizə "Dur!" - deyib ürək bağlanır.

## CAN YOXDUR

"İnsanlarda" can qalmayıb,
Yeriməyə taqəti yox.
Nə qalxmağa gücü çatır,
Ümididə heç qəti yox.

Üzülübdür vücudu da,
Yeməyə də çörəyi yox.
Kişilərə iş verilmir,
"Qadınların" ürəyi yox.

Cavan qızlar tələb edir,
Nə etsin bu yazıq millət ?
Dünya da od tutub yanır,
Çəkir millət böyük zillət.

## MƏRDLİK NİŞANƏSİ

Mərdlik,mərdanəlik nişanəsidir,
Vətənin hünərli,ər oğulları.
Cüssəli görünür əlində silah,
Vətənin hünərli,ər oğulları.

Hazırdır canından keçməyə hər an,
Qoruyur torpağı igid,qəhrəman.
Düşmənə zərbəsin vurar hər zaman,
Vətənin hünərli,ər oğulları.

Ver əzab-əziyyət,ya öldür,asın,
Unutmaz heç zaman ana-atasın.
Qeyrətlə düşmənin verər cəzasın,
Vətənin hünərli,ər oğulları.

Vuruşub qaytarar torpağımızı,
İgidlər at çapan yaylağımızı.
Göylərə qaldırar bayrağımızı,
Vətənin hünərli,ər oğulları.

Xəyanət eyləməz bir an Vətənə,
Eyləyər canını qurban Vətənə,
Əzəldən sadiqdir canan Vətənə,
Vətənin hünərli,ər oğulları.

## GÖZÜMDƏ NİSGİL ÇÖKMƏSİN

Mən dünyanı adlamadan,
Eniş-yoxuşu tanıyıram.
Həyatıma gəlməsən də,
Səni yaxşı tanıyıram.

Gedər olsam mən həyatdan,
Sıxılma sən,əziz insan.
Məzarıma qızılgül ək,
Qoxla onu zaman-zaman.

O ətirli qızılgülü,
Qoxla,mənim qoxumu al.
Mənsiz keçən həyatında,
Peşman olub xəyala dal.

Boynu bükük bənövşətək,
Mənsizliyi yaşayıbsan.
Sevincini bölüşmədən,
Sən solubsan,saralıbsan.

Yaşat məni,ey Allahım,
Gözümdə nisgil çökməsin.

Arzuları göz yaşıtək,
Gözlər yanağa tökməsin.

**BAĞIŞLA**

Əziz dostum,yadındamı o günlər ?
Görüş istəyirdin,qəlbim daş idi.
Sevgi nə olduğun bilməyən insan,
O zaman görüşə,söylə,gələrmi ?

Yadındamı dediyin ilk kəlmələr ?
Qulağımda cingildədi,hirsləndim...
İtaətlə yalvararaq deyirdin ;
-Gəl görüşək,nə olar,ay sevgilim.

Xasiyyətdə ağır idim,bu sözlər,
Mənə çatmır,daş qəlbimi sıxırdı.
Sən sevirdin,mən isə əsəbləşib,
Sənə nifrət baxışlarla baxırdım.

İndi arxadadır keçib o günlər,
Qəribə bir hislər keçir qəlbimdən.
Sevgi hislərini duymayan insan,
Həyatı heç olub demək hər zaman.

Saxta sevgilərlə doludur həyat,
Qorxudub saxtalıq hər zaman məni.
Sevgimi içimdə daş kimi sıxıb,
Bağışla,sevgilim,incitdim səni.

## DƏRDDƏN BOĞULURAM MƏN

Qol-qanadım qırılıb,
Rəngim solub-saralıb,
Qəlbim yaman daralıb,
Fikirlər məni alıb,
Darıxdırır qəlbimi,
Ölmək istəmirəm mən.

Sıxma məni,a dərdim,
Ürək qalıbdır yalqız.
El-aləm qoy bilməsin,
Məni gücsüz,amansız.
Darıxdırır qəlbimi,
Ölmək istəmirəm mən.

Balıq sudan çıxanda,
Neçə hallara düşər...
Bax eləcə oluram.
Gəl məni dərd içrə gör,
Darıxdırır qəlbimi,
Ölmək istəmirəm mən.
Bacarmıram özümlə,
Ölmək istəmirəm mən.

## İSTƏMİRƏM DAHA HEÇ NƏ

Sizdən heç nə istəmirəm,
Bircə salamımı alın.
Sizdən heç nə istəmirəm,
Məni məntək yada salın.
İstəyim bu, bircə mənim,
Mənə açın ürəkləri.

Sevgi dolu pak bədəndə,
Bir ruham mən xırda, cılız,
Amma çoxdur diləkləri.

Nə gizlədim,yetiməm mən,
Nə atam var, nə də anam.
Tək bir qızam ailədə,
Gəldim sizə bir dost kimi,
Qəlbinizə lövbər salam.

Daha heç nə istəmirəm.
Hara gedim bu vaxtı mən ?
Sakit qızam,dada yetin,
Oğurlayıb taleyimi,
Məni bədbəxt eləməyin.

**PAXIL OLMAQ QƏBAHƏTDİR**

Mayası olmayanlar,
Dad eyləyir hər kəsdən.
Paxıllıq azad olub,
Çıxa bilmir məhbəsdən.

Əclafların günahı,
Bağışlanmaz heç zaman.
Yüksəlmək istəsə də,
Allah verməz heç aman.

Çalış yaxşılıq eylə,
Günahların yuyulsun.
Yaxşı insanlar kimi,
Adın hər an duyulsun.

## XƏYALLAR

Xəyallar,xəyallar,buraxmır məni.
Mənimlə bərabər yaşayır məndə.
Nə olsun reallıq məndən uzaqdır,
Sevgini öldürüb gömüb bədəndə.

Ölüm özü haqdır, olmur qaçırmaq,
Həyatda nə ölsə, xəyallar ölməz.
Hər gün təkrarlanır,oyanır hislər,
Məni də,sevgidən ayırmaz,solmaz.

Dünyada bərabər,qoşa gəzirlər,
Sevgini yaşadan,öldürən insan.
Yaxşı-pis ölməyib dünya içində,
Xəyaldır yaşayan ölümsüz hər an.

## DUALAR QƏBUL OLSUN

Dualarım sənindir,
Məni çağır,həm dindir.
Gözəl əməllərinlə
Hər an məni sevindir.

Sevincim durar olsun,
Həmişə yarar olsun.
Ruzinlə sən sevinib,
Evin bərqərar olsun.

Oğul-uşaq bol olsun,
Qulluğunda da dursun.
Valideyin sevincdir,
Övlad məhəbbət umsun.

## NƏ OLDU SƏNƏ?

*(iş axtaran şair dostuma.)*

Yenə nə oldu sənə ?
Belə gileylənirsən.
İş də tapdın,şükürlər,
Qəddini əyməyibsən.

Öz gücün,öz zəhmətin,
Həm də,möhtac deyilsən.
"İş insanın cövhəri",
Şükür ki,ac deyilsən.

Halal ruzin bol olsun,
Möhtac olma heç kəsə.
Bu dünyanın işidir,
Qəm-kədər verməк nəsə.

## YAŞAMAQ OLAR

Aşiqlər sevgidən yanıb kül olar,
Dedim;-Eşq oduna yanmalı aşiq.
Hicrandan aşiqlər saralıb-solur,
Hər gözəl sevgiyə olurmu layiq ?!

Dedim;-Bilirsənmi orda nələr var?
Orda məhəbbət var,hicran,vüsal var.
Sevgi məhəbbətin,həsrətin özü,
Orda yaşamaq var,ümid,xəyal var.

Dedim;-Yaşamağın öz ləzzəti var,
Ayrılıq olmayan sevgi,eşq ilə...
Qarşılıq olmayan sevgi yaşamaz,
Qarşılıq olsun ki, sevgi yüksələ.

## DEYİM,DEMƏYİM ?

Sevincim sənindir,kədərsə mənim,
Mən necə həyatdan birdən əl çəkim.
Dərdlər müxtəlifdir,deyim, deməyim ?!
Dərdim mənimlədir,necə həzm edim ?

Doludur həyatda qəmli lövhələr,
Kim görsə,dinləsə həmən kövrələr.
İçimdə dağıdır susan kəlmələr,
Yaralı ürəyim sökük-sökükdür.

Xoşbəxt ol,mən sevim sən bəxtəvəri,
Sevincin içimdə boğur kədəri.
Dedim ;-Sənin ilə zülmət şəhəri,
Görürəm günəşli səhərlər kimi.

## MEHRİBAN NƏVƏMƏ

Ailə baxçamın bir çiçəyisən,
Bütün əzizlərin sən ürəyisən,
Mehriban yazdırdım adını belə,
Nənə əvəzidir,darıxmaz kimsə.

Bir çiçək ətirlim,Mehribanımsan,
El ola sevincin,qoy üzün gülsün.
Qəlbində yığılan bütün arzular,
Tumurcuq eyləsin,qoy çiçək açsın.

Sənin yollarına çiçək səpilsin,
Qəm-kədər görməsin gözün heç zaman.
Nənənin şipşirin,gözəl göyçəyi,
Mehriban baxışlı nəvəm Mehriban.

## DƏLİ KİMİ SEVİRƏM

Mən səni çox sevirəm,
Bel torpağı sevəntək.
Amma deyə bilmirəm,
Gecə-gündüz sinəmdə
səninlə vurur ürək.

Mən səni çox sevirəm,
Ağac suyu sevəntək.
Necə söyləyim,deyim ?
İçimdə bəslədiyim,
Sən osan,o da ürək.

Mən səni çox sevirəm,
Güllə hədəf sevəntək.
Kaş ki,oraq olardıq,
Sevgiyə qovuşardıq
düşmənləri biçərək.

Mən səni çox sevirəm,
Bu sevgim sonsuz demək.
Şirin öz Fərhadını,
Züleyxa Yusifini,
Leyla Qeysi sevəntək.

Bu sevgi nə sevgidir ?!
Bilmirəm nədir adı.
O qədər sevirəm ki,
Qışqıraraq deyərəm ;
Səni,səni sevirəm,
Dəli kimi sevirəm.

## AY İŞIĞINDA

Buludlar damar-damar,
Göydən yerə gur yağar.
Dənizin sularında,
Sağa-sola boylanar.

Gecənin təsirindən
aşiqlər yata bilməz.
Verib əl-ələ sakit,
Sevgini ata bilməz.

Aşiqlər ətrafında
işıq verər böcəklər.
Pırıl-pırıl parıldar,
Quştək uçar ürəklər.

Sev ki, ürək döyünsün,
Sev ki, sevən sevinsin.
Sev ki, sevən sevgilin,
Eşq odunda isinsin.

## GECİKMİŞ MƏHƏBBƏT AXTARIRSAN SƏN

Yenə nə gəzirsən bu göy otlaqda ?
İtirmiş eşqini axtarırsan sən ?
Artıq çürümüşdür eşqin kökləri,
Heçlikdə nəyini axtarırsan sən.

Ümid əllərini çəkmə,dayan,dur !
Kim bilir,bir də o,nə vaxt cücərər.
Çürük kök üstündə heç cücərməyən,
Gecikmiş məhəbbət axtarırsan sən.

Solmuş simaların,solmuş taleyin,
Cücərməyən budaqları qalıbdır.
Külək sovurduğu yarpaqlar kimi,
Axtardığın itirilmiş ağacdır.

İndi yetim qalıb hicran,vüsal da,
Eşq də, məhəbbət də, solubdur artıq.
İndi hər ikimiz yetim qalmışıq,
Keçən günlərimiz donubdur artıq.

## NƏSİHƏT

Necə ağır,necə çətin həyatdır,
Bir gün yas məclisi,bir gün büsatdır.
Ağrını,acını hiss etdirmədən,
İnsanla mehriban davran,dolan sən.

Yarandın Allahın istəyiylə sən,
Ağlama,sısqama,dözümlü ol sən.
İkrahı unutub sevgi yolun tut,
Mətin olmağınla eylə sən subut.

## EŞQƏ GİRİFTARIN HALI NƏ OLUR

Aylı gecə xəyalların timsalı,
Sən skamyada xəyalınla olursan.
Düşündükcə yar ətirli çiçəktək,
Qışa düşüb qar altında solursan.

Xəyal səni haralara aparmır,
Həm dolursan,həm də ki,boşalırsan.
Sanki səni soyuq külək aparır,
Gizlənməyə bir dalda axtarırsan.

Sıxılırsan o daldada uşaqtək,
Qəfil səsdən diksinərək durursan.
Nə önündə,nə arxanda,yanında,
Kimsə yox ki,bir təsəlli tapasan.

Quşlar cəh-cəh vurur gecə və gündüz,
Fikirdən, xəyaldan ayırmaq olmur.
Şüursuz bir varlıq hardan bilsin ki,
Eşqə giriftarın halı nə olur.

## HƏYAT BİR PƏNCƏRƏ

Həyat bir pəncərə,sən də,baxırsan,
Görən pəncərədən görürsən nəyi ?
Gözünün önündən keçən kölgələr,
Titrədir sinəmdə kövrək ürəyi.

Mən sənsiz baxmaram o pəncərədən,
Baxsam da,o tayda görərəm səni.
Gözünün önündən keçən kölgələr,
Sənsiz baxışlarla incidir məni.

Görən gözlər ayırd etmir sevəni,
Sıxıb bu qəlbimi təklik hər zaman.
Çəkərsən əziyyət ömür boyu sən,
Ürəyin unutsa sevgini bir an.

## GÜLÜM

Bir naməlum göyçəyin
izinə düşdüm,
yollandım.
Çiçək açıbdır cöhrəsi,
həsrət ilə yollandım.

Gur saçları xurmayıydı,
Buruq idi telləri,
Muğam deyib çöllərində
tanıdırdı elləri.

Açılmış bir çiçək idi,
Saçının teli şanı.
Ətrindən doymaq olmurdu
qoxu ala hər yanı.

Əylənirdi,
O, qaçırdı,
Sanki göydə uçurdu.
Qollarını oynadırdı,
Xoş üzü nur saçırdı.

Fərəh məni bürüyürdü
qoşulmaq istəyiylə,
Tutub incə əllərindən
bərk qucmaq istəyiylə.

İstəyirdim qoyum əlin
bu narahat sinəmə,
Varaqlasın saçlarımı
əlac etsin dərdimə.

Gülüm, göz dəyməsin qoy,
səndə olan halətə,
Gülbənizin solub sənin
düşməsin cəhalətə.

## YAPIŞMA

Bu dünyadən başın alıb gedirsən,
Dərdlərini sıxıb ürək üzürsən,
Gözəlləri gedə-gedə süzürsən,
Bacarmayan heç bir işdən yapışma.

Deyirlər ki,sevmək asan bir işdir,
Sevincimi bölən ürək genişdir,
Hicran məni sənsiz yaman sevmişdir,
Bacarmayan heç bir işdən yapışma.

Naməhrəmi namərdlərə tapşırma,
Qəlb coşsa da,əməlləri coşdurma,
Haqq-ədalət hələ vardır,boş durma,
Bacarmayan heç bir işdən yapışma.

## ŞƏHİDİN ANAYA ETİRAFI

Uyuyuram Vətən torpağında mən,
Mən şəhid olmuşam zəfərsiz, ana.
Mən o zaman burda rahat yatardım,
Görərdim mən səni kədərsiz, ana.

Şərəflə getmişəm Vətən yolunda,
Şərəfsizlər nə vaxtadək qalacaq ?!
Sürükləyib Vətənimdən atmağa,
Vətənsevən oğulların olacaq.

Vaxt tapmadım mən sevgili seçməyə,
Qonşunun qızında gözüm də qaldı.
Ümid-arzularım,diləklərim də,
Bu yanan qəlbimdə, sinəmdə qaldı.

## ÖPƏRDİM

Sənin gözlərində ümid görsəydim,
Bəlkə də dərdinə çarə edərdim.
Mələklər göylərdə pərvaz edəndə,
Sənin gözlərindən bir çüt öpərdim.

Pərvanə şəminə dövrə vurantək,
Sənin də başına dövrə vurardım.
Gözəl güllərimdən çələnglər hörüb,
Başına çiçəkli tacı qoyardım.

## ÜMİD SABAHADIR,VƏRƏNİ ALLAH

Yalqızam,bu dünya təkcə mənimdir,
Boşluğu dolduran məhəbbətindir,
Varlığın qəlbimdə tək sərvətindir,
Onu bu yalqıza çox görmə,gülüm,
Yetib vüsalına qoynunda ölüm

Beş günlük dünyadır,üç eylədilər,
Qalan günləri də puç eylədilər,
Aşiqlər bir-birin quc eylədilər,
Onu bu yalqıza,çox görmə,gülüm,
Yetib vüsalına qoynunda ölüm.

Yediyim,içdiyim zəhərdir,zəhər.
Gözümü açdığım səhərdir,səhər.
Vallahi,hər biri bəxtəvərdirlər,
Onu bu yalqıza çox görmə,gülüm,
Yetib vüsalına qoynunda ölüm.

Eşqim aşıb-daşıb, rəsmim yetməyir,
Qəlbim səninlədir,cismim yetməyir,

Bu ağlar,bu yaşlar gözdən getməyir,
Onu bu yalqıza çox görmə,gülüm,
Yetib vüsalına qoynunda ölüm.

Eşqin ürəyimdə bir kök salıbdır,
Bütün varlığımı məndən alıbdır,
Bu quru canımda cəsəd qalıbdır,
Bəlkə qurda-quşa yem oldu,gülüm,
Yetib vüsalına qoynunda ölüm.

Gəlim mən yanına dada yetəsən,
Görüşüb təklikdə dərdi böləsən,
Eşqim qarşısında sən bir köləsən,
Onu bu yalqıza çox görmə,gülüm,
Yetib vüsalına qoynunda ölüm.

## QOCA ÇİNAR

Çinar,
gözəlliyin, görkəminlə sən,
Şumalsan,
kövrəksən,
amma ki,heç vaxt,
Sən ya əyilmirsən, ya da sınmırsan.
Nədəndir bilmirəm incə əsirsən.

Artıq çəkinməyir insanlar səndən,
Sən özün boyda bir açılmaz sirsən.
Gözəllik yağırdı o görkəmindən,
Hər kəs xəbərsizdir dərdi-sərindən,
Hər an yel əsəndə,
yellənəndə sən,
Küləyin özü də,qorxurdu səndən.

Bu əsən küləklər xainlik edib,
Sındırmasın səni,

görkəmində qal.
Yetəcək zamanı o xainlərin,
Ayağın altından gələcək zaval.

**ARZULAR**

Bu dünyanı qarış-qarış mən səninlə gəzəydim,
Çiçəklərdən topa edib saplağından üzəydim,
Qönçələrdən dəstə edib toplayaydım,düzəydim,
Sən gələndə o yollara çiçəkləri səpəydim.

Təbəssümlə o simana baxıb gülümsəyəydim,
Gülüşündən xoşallanıb musiqisiz süzəydim,
Baxışından ceyran kimi hürkərək çekinəydim,
Maral kimi duruşunla yanağından öpəydim.

**GÖRÜŞ**

*(52 ildən sonra Tahir müəllimlə görüşümüzə.)*

Məktəb illərini xatırladım mən,
Ətrafda xoş qoxu kövrəltdi məni.
Dedilər,məclisə bir nəfər gəlib,
Görüşmək istəyir,gözləyir səni.

Sevincdən ürəyim tir-tir əsirdi,
Onu görmək üçün çox tələsirdi.
Düşündüm kim olar görən bu gələn?
Sinif yoldaşındır,dedilər birdən.

Sevincdən göz yaşım axdı gözümdən,
Məktəb illərimi yad elədim mən.
O məktəb illəri,gənclik illəri,
Cavan saxlamışdır bu könülləri.

Çevrilib arxaya nəzərlə baxdım,
Bu yazar dostuma hünərlə baxdım,
Təəccüb hisləri bürüdü məni,
Bu qoca gəncliyə dəyərlə baxdım.

O keçən günləri xatırlayıb biz,
Şirin söhbət ilə vurdu qəlbimiz.
Bu dostum müəllimdir,yazar,şairdir,
O gözəl insanın adı Tahirdir.

Cabbar professor, dostu həkimdir,
O Dağ Yelfidəndir, sözə mahirdir...
Poeziya vurğunu,şeir xəstəsi,
Yazmışam həvəslə illər öncəsi.

**İSTƏK**

Ürəyindən keçəni
bircə-bircə həkk eylə.
Qoyma axsın simandan
yaşların gilə-gilə.

Kədər,qəmin azalsın,
O yerdə sevgi gülsün.
Allaha tut üzünü,
Odur sənin ümüdün.

**UMMA**

Məndən sevgi uman gözəl,
Umma odlana-odlana.
Yanağında yaş damladı,
Gəlmə sallana-sallana.

Bölüşməyə artıq keçib,
Qocalmışam vaxtım ötüb.
Bütün illəri gözləyib,
Sənə bağlana-bağlana.

Ürəyimdə yağ qalmamış,
Qəlbimdə sevgi ərimiş,
Gölərimin nuru itmiş,
Yola boylana-boylana.

## GÖRƏN OLMADI

Doldum bulud kimi, yağdım yağıştək,
Dərdimə bir çarə tapan olmadı.
Ağrıyan canımdan can istədilər,
Verməyə canımda canım qalmadı.

İstədim can deyim,şirinlik qatım,
Acıdır dedilər,dadan olmadı.
Axdı göz yaşlarım çayla qovuşdu,
Uzatdım əlimi tutan olmadı.

Ölüm yatağında çarpışan zaman,
Gözümü diksəm də,aman olmadı.
Buludlar oynadı,yağdı yağışlar,
Dərdimi həyatda görən olmadı.

## ONA DEYİN QAYITSIN

Ona deyin qayıtsın,
Onsuz çox darıxıram.
Sonu sonsuz səmada,
Göylərdə axtarıram.

Dalğalarla dənizdə,
Dağda,çəməndə,düzdə,

Hər baxışda ,hər üzdə,
Hər yerdə axtarıram.

Yazdığım hər misrada,
Hər sözdə, hər mənada,
Şeir adlı dünyada,
Sətirdə axtarıram.

Dərddən sinəm dağlanıb,
Yaşdan gözüm bağlanıb,
Dilimlə dorağlanıb,
Qəlbimdə axtarıram.

Görən ona desin ki,
"Səni gözləyir Ərkli".
Bu şeir də bugünki,
Bu gün də axtarıram.

## RƏSİM

Həyatda bir arzum olub,
Sevginin rəsmini çəkmək.
Həmişə olduğu kimi,
Daxilini,qəlbin görmək.

Kətan üstündə surəti,
Vüsal, eşqi, məhəbbəti,
Simasındaki həsrəti,
Tuğyanını çəkə bilmək.

Ağ fonunda qara gözün,
Günəş kimi nurlu üzün,
Dodaqlarda şirin sözün,
Vücuduyla birgə çəkmək.

Sevgi qədər bir inamlı,
Görməmişəm yanaşmanı.

Qəlbindəki ulaşmanı,
Rənglər ilə sözün deməк.

## ARZULARIM DİLƏ GƏLMİR

Mən dünyamı sənə verdim,
Sənsə onu qorumadın.
Ürəyimdən qopan ahı,
Zamanında tutammadın.

Çox ağrılı,acılıydı,
Nərəsindən tük ürpəşir.
Qayalardan qopan daşlar,
Dağdan gəlir,yeri eşir.

Gözlərimdə yaş quruyur,
Gözlərimin nuru sönür.
Çaylar daşıb su durulur,
Arzularım puça dönür.

Həyat sonsuz,sevgi onsuz,
Gücüm çatmır inan onsuz.
Lal baxışlar da karıxır,
Dərd əlindən donur onsuz.

## GÜL ÇƏLƏNGİ HAZIRLAYIB

*(Vətəndən uzaqlarda vəfat edən, məzarları baxımsız qalan el oğullarına.)*

Hazırlayıb gül çələngin,
Yolladım qəbir üstünə.
Yanmamışdım mən oduna,
Kor oldum indi tüstünə.

Çox istərdim söhbət edək,
Uzun illər ayrılıqdan.

Gözləyirdim mən yolunu,
Bezikmişdim ayrılıqdan.

Bu bəlalı sevgim mənim,
Ayrı saldı Vətənindən.
Nə günahın vardır sənin?
Solub getdin çəmənindən.

Dedilər ki, dağılmışdır,
Baxımsızdır sənin qəbrin.
Bu dünyada adın qalıb,
Cənnət olsun son mənzilin.

## GÖZƏL DOSTLARIMA

Bilirsənmi ?
Bir sözüm var,
Demək istərdim sənə.
Özün də,heç bilmirsən,
Necə yaxınsan mənə.

Sözünlə cazibədar,
Çün sözündə düzlük var.
Əməlində xeyirxah,
Elə bil ki,qəlbimsən,
O,sənsən.

Söz-söhbətin təqdirli,
Əməllərin tədbirli,
Heç olmayıb məkirli.
Dalaşmırıq səninlə.
Dostluğumuz sıx olsun,
Allah səni qorusun.

Çox görməsin heç zaman,
səni mənə cahanda.

Dostluğumuz hər anda,
hər şeydən üstün olasun.

## AZƏRBAYCAN DƏRDLİDİR

Azərbaycan dərdlidir,
Qəm dolu sərhədlidir.
Dünyanın hər yerindən,
Hünəriylə fərqlidir.

Xalqı əməksevərdir,
Sözü şirin-şəkərdir.
Oğulları hünərli,
Arzusunda zəfərdir.

Tükənməzdir sərvəti,
Bərəkətli neməti,
Doqquz iqlim içində,
Keyf edir təbiəti.

Hər anını yaşar sağ,
Bu sağlıqla keyfi cağ.
Dərdi budur onun tək,
Yad əldədir Qarabağ.

## CAN İSTƏDİ

Ürəyim gözündədir,
Baxışlar deyir nəsə.
Mən səni sevdiyimi,
Bilməsin heç bir kimsə.

Qəlbim çox yaralıdır,
Qalıb can, can üstədi.
Düşdüm xəstə yatağa,
Səni görmək istədi.

Nə mələk,nə bir kələk,
Keçməz yolumun üstə.
Canımdan can istəsən,
Deyərəm mən,baş üstə.

**KEÇMƏ NAMƏRD KÖRPÜSÜNDƏN**

Ey insanlar,qulaq asın!
Hər an doğru deyin, yazın.
Dərk eyləyib çoxun-azın,
Keçmə namərd körpüsündən.

Yaxşı-pisi ayırmasan,
Xeyir-şərdə sayılmasan,
Bu dünyada oyanmasan,
Keçmə namərd körpüsündən.

Öyrətmə dili yalana,
Yalan atəş salır cana.
Bürünərsən sən al qana,
Keçmə namərd körpüsündən.

Yaxşı insan doğru görər,
Dost sirrini bağlar,hörər.
Olsa xəsisliyin əgər,
Keçmə namərd körpüsündən.

Namərd gəlməz heç xoşuna,
Qoyma onu özbaşına.
Mərc eyləyib boş-boşuna,
Keçmə namərd körpüsündən.

## YOLUMLA GEDƏCƏYƏM

Bu dünyaya yumacam,
Həsrət çəkən gözümü.
Axtaranlar tapmasın,
Can inləyən sözümü.

Qəfil yoxa çıxaram,
Bu dünyanın özündən.
Almaz gözüm arxaya,
Getsəm kədər üzündən.

Bir daha bu həyatda,
Sözüm yox,görünmərəm.
Hər kəs sözümdə ikən,
Hər kəslə sürünmərəm.

Sakitcə uzaqlaşıb,
Yolumla gedəcəyəm.
Sənsizliyin içində,
Mən sənsiz öləcəyəm.

## ELÇİ GƏLMİŞDİ

Rast gəldiyim o günü,
Mənə yaman baxırdı.
Məhəbbət başqa şeydir,
Gözləri od çaxırdı.

Demədim mən heç kəsə,
Saxladım sirri möhkəm.
Ürəyimdə o varkən,
Çəkmədim nə qussə,qəm.

Hər məni o görərkən,
Baxışlarım çaşırdı.

Özümdən ixtiyarsız,
Baxışlar toqqaşırdı.

Qurban bayramı günü,
Oğlan elçi gəlmişdi.
Belə ciddi fikirlə
olduğun deməmişdi.

## HƏYATINDA ŞƏR OLMASIN

Sevincimə bir şəkər qat,
Dadından doymaq olmasın.
Həyatına sevinc qatım,
Qəlbində dərd-sər olmasın.

At başından gümanları,
Düşünmə bəd insanları.
Ötür bir-bir pis anları,
Həyatında şər olmasın.

Dinləyib ürək sözünü,
Oyat qəflətdən özünü.
Günəş kimi aç gözünü,
Sənsiz bir səhər olmasın.

## YADINA DÜŞSƏM

Nə vaxt ki,yadına düşəcəyəm mən,
Fikirə mübtəla olmayasan sən.
Sən məni ziyarət etmək istəsən,
Qəbrimin üstünə ziyarətə gəl.

Dünyadan köçdüyüm zaman ağlama,
Keçmişi düşünüb tək varaqlama,
O ötən günləri tənha saxlama,
Mənimlə bölməyə səxavətə gəl.

İstəməm mən səni kədər çəkəsən,
Saçına ağ qarı hədər çəkəsən,
İstəsən eşqini əgər çəkəsən,
Məni xəyal eylə,məhəbbətə gəl.

## TƏLƏSMƏ

Ömrünü sən vermə bada,tələsmə,
Yorar tələskənlik həyatda səni.
Bir düşün ağılla yolun haradır,
Səbirlə gedərsən bu çöl-çəməni.

Tələsmə ! Yolunu aza bilərsən,
Bu yollar bilinmir ağdır,qaradır.
Tələskən yolların yolçuları heç,
Anlamır olduğu məkan haradır.

## MÜQƏDDƏS EŞQ

Dəli könlüm aşiq olub hüsnünə,
Gözəllikdə tayın yoxdur,ey gözəl.
Bəxtəvərlik,sevinc sənin qismətin,
Qəm-kədərdən payın yoxdur,ey gözəl.

Gözlərində sürməyə yox ehtiyac,
Telin hicab,örtməyibdir üzünü.
Bu ay üzün vurğunuyam görəndən,
Söyləyirəm,nə gizlədim düzünü.

Al yanağın gözəlliyi xalındır,
Yemə-içmə tamaşa et xalına.
Sevilənin xəbəri yox sevəndən,
Bax üzünün bəyazlaşan halına.

Yaraşıqda, gözəllikdə təksən,tək.
Uca boylum,şirin sözlüm, sonda bəs,
Ayrı qaldıq, qovuşmadıq həyatda,
Qaldı eşqin ürəyimdə müqəddəs.

## QAYTARIN TORPAĞI

Ey məni dünyadan ayrı salanlar !
Yurdumu ayaqlar altda qoyanlar !
Ümid xəzinəsin çalıb soyanlar !
Qaytarın torpağı,qaytarın geri.

Vətən həsrətiylə alışıb yanan,
Keçmişi,tarixi nağıla salan,
Nə qədər qulaqlar eşidər yalan ?!
Qaytarın torpağı,qaytarın geri.

Artıq qocalmışıq bel də bükülür,
Uşaqlar böyüyür,qocalır,ölür...
Gəncliyin önündə keçmiş büzülür,
Qaytarın torpağı,qaytarın geri.

## GÖZƏL QUBAM

Mümkün deyil dağlarından yan keçim,
Haradan keçsəm də, izləyir məni.
O gözəl dağları yamaclarından,
Tamaşa edirəm dumanı, çəni.

Uşaqlıq çağlarım burda keçibdir,
Havasın udubdur, suyun içibdir,
Xatirəm yenə də, səni seçibdir,
Gözəl Qubam mənim, sevirəm səni.

Almalı bağların təravətindən,
Kolların meyvəli lətafətindən,
Yemişan, itburnu,moruq,böyürtkən...
Mənimtək Qubanı bilib Vətəni.

## TORPAQ DƏRDİ

Torpağın dərdini çəkə bilmirəm,
Göz yaşı tökürəm, digəl silmirəm.
Yadlar ayaqlayır torpağımızı,
Hər gecə ağlaram, amma gülmürəm.

Vicdan əzab çəkir qəm içimizdə,
Kədər məskən salıb nur üzümüzdə,
Allahdan bir bəla gəlsəydi kaşki,
Düşməndən qisası alardıq biz də.

Gözdən yaş düşəntək biz də düşürük,
Qol-budaq atmırıq, gövdəmiz çürük,
Torpaq düşməndədir, biz isə, nədən,
İlləri illərə verib dözürük ?!

## MƏRDİMƏZAR

Əcəl girləyibdir səni deyəsən,
Gedənə-gələnə çox ilişirsən.
Gəlsənə ağlını başına yığıb,
Sakit bir guşədə fikirləşəsən.

Axmaq fikirləri atıb başından,
Başqa qadınları süz baxışından.
Qeyrəti,vicdanı toplayaraq sən,
Baxaraq ayırma anan-bacından.

Müasir həyatın tələbləri çox,
Ağıllı olmağın səbəbləri çox,
Mərdiməzarlığı qoyub bir yana,
İnsan ol,insanlıq ədəbləri çox.

## SEVGİ

Sən ayaq qoyduğun torpağa,inan,
Başımı qoyaram,orda ölərəm.
Heç kimlə bölmərəm heç zaman səni,
Amma ki,varımı sənsiz bölərəm.

Sevgi,eşq,məhəbbət çox ucuzlaşıb,
"Sevənlər" çoxalıb yalan donunda.
Sevginin qədrini bilməyənlərin,
Ayrılıq məhv edir işin sonunda.

## KƏDƏRİN QƏLBİMİ DAĞIDIR

*(Şairə dostum Sevda Kərimliyə)*

Qəmli gözlərinin qurbanı olum,
O şirin sözlərin heyranı olum,
Ağlama,gözəlim,dərmanın olum,
Sənin dərdlərinin loğmanı olum,
Nə olur ağlama,ağlama,canım,
Kədərin qəlbimi dağıdır axı.

İnan hər bir dərdə hər an var əlac,
Bir az səbirli ol,ürəyim mənim.
Demə hamı yazır,mənsə naəlac,
Edirəm arzumu,çiçəyim mənim.
Nə olur ağlama,ağlama,gülüm,
Kədərin qəlbimi dağıdır axı.

Düşmən sevinəcək sənin qəminə,
Bir az mətin dayan,qürurlu ol sən.
Ey şairə dostum,sözün şəminə,
Sən ulduz,mən ulduz toplanaraq şən,
Bəs edər bu qədər ağlama,dostum.
Kədərin qəlbimi dağıdır axı.

**UNUT**

Həqiqəti görüb ona,
Unut dedim,unutmadı.
Vaxt-vədəsi yetişəndə,
Göz yaşımı qurutmadı.

Axar sular durulanda,
Sevincimiz doğulmadı.
Döndü məhəbbət zəhərə,
Arzularım çin olmadı.

Bahar vaxtı qışa düşdüm,
Açan gülüm birdən soldu.
Təslim oldum qəm-kədərə,
Hər nə oldu mənə oldu.

El-obanın sevimlisi,
Nakam oldu nədən belə ?
Eşq-məhəbbət fədaisi,
Döndü solan qızılgülə.

**MARŞ**

İgid əsgər,möhkəm dayan !
Avtomatın,darağın var.
Qaldır göyə bayrağını,
Sənin yaraq-yasağın var.

Nəğarət :
Bayrağını uca tut,
Azərbaycan əsgəri !
Cəsarətli,qürurlu,
Addımlarla irəli !
İgid əsgər,Vətən sənin,
Hünərinə arxalandı.
Gəbərt mənfur düşmənləri,
Bu qan yerdə qalandı.

Nəğarət :
Bayrağını uca tut,
Azərbaycan əsgəri !
Cəsarətli,qürurlu,
Addımlarla irəli !

**NƏZARƏT EYLƏ**

Ata olmaq çox çətindir həyatda,
Yetişdirsin övladını düz adda.
Bu sözümü saxla həmişə yadda,
Nəzarəti güclü eylə, atası!
Vətəninə gəlməsin bir xətası.

Ana südü bəsləyirdi övladı,
Qoruyardı həm nəslini, həm yadı.
"Malış" ilə saxlanılan övladı,
Nəzarəti güclü eylə, atası!
Vətəninə gəlməsun bir xatası.

Halal övlad yetişdirmək ad olsun,
Vətəninin keşiyində o dursun.
Vətən oğlu vətəndaş tək yaşasın,
Nəzarəti güclü eylə, atası!
Vətəninə gəlməsin bir xətası.

## EY QƏLBİMİN PARASI

Şirinsən, bal kumisən, səndən ayrılmaq olmur,
Baxışın od kimidir, nəfəsinsə alovdur.
Hər sözün bu dərdimə məlhəm olub, necə xoş,
Ay zalımın balası, getmə, mənimlə qal, dur!

Gözlərin almaz kimi, şəfəqlərin nur saçır,
Yanaqların allanıb, qızıləhməd alması.
Bu gözəllik qəlbimi işqal edib yağı tək,
Amandır, rəhim eylə sən, ey qəlbimin parası.

## DİTDİLİ ƏMƏLİYYATI

Üç gündür bir ditdili
girinc eyləyib məni.
Fırlanır hey başıma,
Deyir ki,öldür məni.

Böyük bir savaşdayıq,
Qoymaram töksün qanı.
Bir şapalağım dəyə,
O anda çıxar canı.

Zıha-vız zil səsiylə,
Səbrimi əldən alır.
Mən səbirsizləşmədən,
Zənn edir zəfər çalır.

Sakit durub dinmədim,
O zənn etdi yatmışam.
Oturdu yanağımda,
Bilmədi aldatmışam.

Bircə şillə dəyincə,
Çıxdı canı o anda.
Ditdili xasiyyətli,
İnsan çoxdu cahanda.

## YUXU

Qoy yuxu yozanlar xeyirə yozsun,
Bu necə yuxudu,ölə bilmədim.
Necə ola bilər,sevincimi mən,
Bölmək istəyəndə,bölə bilmədim.

İllər ötüşsə də,doğmalığı var,
Qaşı-gözü tanış,ədası tanış.
Şirin gülüşünə ürək dayanar,
Şirin səsi tanış,sədası tanış.

Kiçik hənirtidən qəfil oyandım,
Boylandım hər yerə sakit dayandım.
Bildim ki,sən yoxsan,alışdım,yandım.
İncidim bərk küsdüm gördüklərimdən.

Emfira,sən mənə danış yuxunu,
Mənə yaxın olan tanış yuxunu.
Şəfəqin rəngi tək naxış yuxunu,
İsitsin günəşin nuru isitsin.

## BAXA-BAXA MƏN DURMUŞAM

Dünya yalan heç uymadım,
Şirin yuxudan doymadım,
Gördüyümü yan qoymadım,
Baxa-baxa mən durmuşam,
Bu dünyada,bu dünyada.

Qəmim çoxdur,gülməmişəm,
Göz yaşımı silməmişəm,
Hər çiçəyi dərməmişəm,
Seçə-seçə mən durmuşam,
Bu dünyada,bu dünyada.

Uymadım dünya telinə,
İncə nazənin belinə.
Həvva,Adəm saf geninə,
Uya-uya mən durmuşam,
Bu dünyada,bu dünyada.

Ey Emfira,sən Ərklisən,
Dostlarına gərəklisən.
Nurlu geniş ürəklisən,
Sevə-sevə mən durmuşam,
Bu dünyada,bu dünyada.

**ÖZÜNƏ BAX**

Hardasan ay cavanlıq ?
Heyif səndən,getmisən.
Sən mənimlə olanda,
Dada hər an yetmisən.

İndi çox qocalmışam,
Gücüm yox, taqətim yox.
Cavanlıq düşüncələr,
Vurur indi qəlbə ox.

İndi çox cavanlara,
Məsləhətim var belə ;
Cavanlığı sevin ki,
Bir daha düşməz ələ.

## SEVGİLİM

Bir arzum var, sevgilim,
Kaş yanında olaydım.
Sarılaydım boynuna,
Gözlərindən öpəydim,
Səni xoşbəxt edəydim.

Öpüb bal dodağından,
Bərk-bərk qucaqlayaydım.
Dərdinə şərik olub,
Sənə həmdəm olaydım.
Sən tək mənim olaydın.

Mən dərdini çəkəydim,
Ürəyindən öpəydim.
Sinənə başım qoyub,
Öləydim,diriləydim,
Səni xoşbəxt görəydim.

## AŞIQ

Dəyərli sazəndə,sazını köklə,
Durub mən qadanı alım,gedəsən.
Niyə qəmli-qəmli süzürsən məni ?
Bəlkə ürəyimə salım,gedəsən ?!

Bu şirin sənətin öncə başısan,
Sevgi üzüyünün yaqut qaşısan,
Qəm-qussə,kədərin mənsiz daşısan.
Bəlkə yol yoldaşı olum,gedəsən ?!

Avazlı şairəm,bir sazım yoxdur,
Kasıb bir bəndəyəm,amanım yoxdur,

Ürəyim qüssədən,kədərdən oxdur,
Çiçək tək yolunda solum,gedəsən ?!

Əzəldən qəmliyəm,dərdim bilən yox,
Məni özüm kimi biri sevən yox.
Ətrafım dostlardır, kömək edən yox,
Gedirsən,açıqdır yolum,gedəsən ?!...

## İNCİDİR

Yazdığım şeirlər həyatım içrə,
Gümüşdür,qızıldır,ləldir,incidir.
Səadət içində bir nöqtəlik var,
Qəlbimin içində məni incidir.

Qəlblərdə yaranan söz xəzinəsi,
Həyatdan toplanıb yığılır hər an.
Qəlbin böyüklüyü kainat imiş,
Nə böyük xəzinə,nə böyük cahan.

## SONUNCU ARZUM

Qocaldım,şuxluğum getdi əlimdən,
Qalmadı nə qüvvəm,nə taqətim heç.
Ürəyim solubdur,aman ver Allah,
Qalmasın qəlbimdə şikayətim heç.

Qoynumda ürəyim vurur mənimlə,
Nədən oyanmamış arzular yatım ?
Gecəni gündüzə qatdım yaşadım,
Aman ver Allahım,kamıma çatım.

Axır nəfəsimdə görmək arzusu,
Qalmasın içimdə bu sonuncudur.

Dünya etibarsız,həyat vəfasız,
Ən şirin arzumuz sonuncu olur.

**KAŞ Kİ**

Həzin bir musiqi gəlir yaxından,
Nazəndə yerişlə yaxınlaşırsan.
Kaş ki,arzuların reallaşardı,
Necə ki,xəyalda reallaşırsan.

Süzəydin qarşımda bir sona kimi,
Lalələr açaydı yanaqlarında.
Sarılıb boynuma qucaqlayaydın,
Öpəydim o püstə dodaqlarından.

**QƏM YÜKÜ**

Pəncərəmə hər an günəş doğardı,
Şualarla qəhərimi boğardı,
Anam üçün göz yaşlarım axardı,
Anam mənim hər dərdimə baxardı,
Hər gün səhər çağırardı yeməyə,
Ürəyindən keçən sözü deməyə.

Şirin-gözəl yaşayardım ömrümü,
Təbəssümlə nur edərdim üzümü,
Hədər yerə atmaz idim izimi,
Bu dünyaya deyim qəmli sözümü,
Nə pis şeydi valideyinsiz yaşamaq,
Ömür boyu bu qəm yükün daşımaq.

## DÜNƏNKİ SEVGİMİZ

Sən mənim gözümdə bir uca dağsan,
O dağı fəth etmək heç mümkün deyil.
Dağları fəth edən sən və mən olduq,
Dünənki sevgimiz heç bu gün deyil.

Bu dağlar, qayalar sirr dağarcığı,
Ayaqlar altında qalar danışmaz.
Ordakı çiçəklər, otlar, ağaclar,
Qışın qorxusundan solar danışmaz.

Atalar deyib ki ;"Sirrini çalış
hər sənə can deyən adama açma.
Dağ kimi vüqarlı,daş kimi möhkəm,
İnsanla dostluq et,yanından qaçma".

Mən səni dağ kimi vüqarlı sandım,
Daş kimi sirrimi daş eyləmisən.
Kaş məni sirrim tək sən qoruyardın,
Heyif gözlərimi yaş eyləmisən.

## TƏSƏLLİ

Əlimdən düşərək bütün arzular
Sındı bir güzgütək,mənsə biqərar,
Özümə təsəlli verib söylədim,
O qədər həyatda sınan güzgü var.

## NİYƏ RAZISAN AXI ?

Baxmaram üzünə,baxmaram birdə,
Saxlaram sirrini toxunmaz yerdə.
Bəxtimə yazıldın səmada,yerdə,
Sən niyə özündən razısan axı ?

Göz yaşlarım selə dönüb axıbdır,
Bir sızıltı, bir də cığır salıbdır,
Sənin eşqin məndən ömrü alıbdır,
Sən niyə özündən razısan axı?

Üz verdim,astarı nəyinə gərək ?
Ömrüm olub yarı,nəyinə gərək ?
Gəlim sənə sarı,nəyinə gərək ?
Sən niyə özündən razısan axı ?

Dost olanda etibarlı olasan,
Etibarsız olsan gərək solasan.
Sən mənə tanışsan,sən elə busan,
Sən niyə özündən razısan axı ?!

## SON ÜMİD

Ayırma əlini əlimdən mənim,
O əllərdir səni kama yetirən.
Mənə bu həyatı səninlə verən,
Sənin bu sevgini mənə gətirən.

Əridib qəlbimdən donmuş arzumu,
Axıdardın gözlərindən qəmli yaş.
Silərdim gözünün yaşını hər an,
Səni qucaqlardım mən sarmaş-dolaş.

Qırılmış ümidlər qaysaq bağlayıb,
Sağalmaz yaranın kökünü kəsib.
Unutdurub sənə çətin günləri,
Mənimlə xoş günə eyləyib nəsib.

**DÜNYAMI SƏNƏ VERDİM**

Mən dünyamı sənə verdim,
Sənsə onu qorumadın.
Ürəyimdən qopan ahı,
Adı bir tək sənin adın.

Çox ağrılı-acılıydı,
Naləsindən tük ürpəşir.
Qayalardan qopan daştək,
Dağdan düşüb yeri eşir.

Sevgim kimi həyat sonsuz,
Sevgisiz qəlb məni sıxır.
Lal baxışlar dinməz onsuz,
Dərd əlindən çox katıxır.

**QORXMA CANIM**

Ürəyimlə baxışını sözlədim,
Hər an sənin gəlişini gözlədim.
Sevib səni hər zaman əzizlədim,
Sənsizliyə fikirləri əymərəm,
Qorxma canım,mən xətrinə dəymərəm.

Sevgimizi üstün tutdum hər şeydən,
Unutmayım deyə içdim o meydən.
Araz keçdim quzeyimə güneydən,
Sənsiz olan sevgi donun geymərəm,
Qorxma canım,mən xətrinə dəymərəm.

Gəl ki,öpüm dodağından,gözündən,
Heç bir zaman çıxmaram mən sözündən.
Düşmərəm mən sevgi adlı dözümdən,
Fəxr edirəm,amma özümü öymərəm,
Qorxma canım,mən xətrinə dəymərəm.

"Dünya beş gün",söyləyibdir atalar.
Ehtiyatlı ol,eyləmə xatalar.
İndi çoxdur hər addımda bəlalar,
İnan sənsiz hər an qalsam,göynərəm,
Qorxma canım,mən xətrinə dəymərəm.

**ŞAİR**

*(Şair Agah Xaçmazlıya.)*

Yenə zirvələri fəth eyləmisən,
Başın zirvələrdən ucadır, şair!
Görən yenə nələr keçir qəlbindən,
O qəlbin dünyadan qocadır, şair!

Dağların döşündə bənövşə, lalə...
Coşdurur içində ilhamı hər an.
Gözəllik meyindın süzüb vərəqə,
Verirsən, nuş edir sevən hər insan.

**DAHA SƏNƏ NƏ DEYİM**

Süfrəmizin başından,
Üzüyümün qaşından,
Yanaqda göz yaşımdan,
Daha sənə nə deyim?!

Qara məxmər, qara daş,
Hər ikisi olub baş.
Yüksək rütbə, yüksək yaş,
Daha sənə nə deyim?!

Qara telim ağardı,
Rəngim solub saraldı,
Canımı xəstəlik aldı,
Daha sənə nə deyim?!

Qorxma, qorxma, ey canım,
Gəl sənin qadan alım.
Sənsiz pis olur halım,
Daha sənə nə deyim?!

Qəlbimə sallam səni,
Ömrümə allam səni,
Gəl canım, şad et məni,
Daha sənə nə deyim?!

## TALEYİM

Dünyamı əlimdən almaq istəsən,
Dünya mənim deyil,dünya sənindir.
Qəmimi əlimdən almaq istəsən,
O qəm sənin deyil,o qəm mənimdir.

Tale yükü ağırdan da ağırdır,
Bu ağır yük acıları yaşadır.
Bu yükü bir daha sənə vermərəm,
Bu acı ürəkdə gözlər yaşardır.

Bağışla,taleyim,bağışla məni,
Çox çətin olsa da tutdun əlimdən.

Mənimlə bərabər sən qocalaraq,
Dayandın bəmbəyaz saçımda dən-dən.

## GÖR NƏLƏR OLUR

Ətini ye, atma suyun,
Sıyıq ye, dadma suyun.
Çalış göz doymamış doyun,
Bax onda gör nələr olur...

Dost ol,çomağı vermə,
Kasıb ol,papağı vermə.
İgid ol,torpağı vermə,
Bax onda gör nələr olur...

Dünya üçün yemə,içmə.
Yardım elə,amma demə.
Sirrini düşmənə vermə,
Bax onda gör nələr olur...

Varını verən utanmaz,
Qanmazı qandırar qanmaz.
Vaxtsız yatan bil ki,durmaz,
Bax onda gör nələr olur...

Söz bilməzə qəzəl demə,
Hər gözələ gözəl demə.
Hər kim gedərsə gəl demə,
Bax onda gör nələr olur...

## GÖZƏL ŞAİR OLACAQ

Xəyalların günəş kimi parlaqdır,
Gülüşləri şəlalətək şaqraqdır.
Böyüməyib,qəlbi hələ uşaqdır,
Seviləcək şeirləri qalacaq,
Öz yurduna gözəl şair olacaq.

Tarlalarda fikirləri sünbüldür,
Sözləri saf,səsi sanki bülbüldür.
Qoxusu da,incə-ətirli güldür,
Qoxuyanlar ürəyinə salacaq,
Öz yürduna gözəl şair olacaq.

Şeirlərin sayı çox,hesabı yox,
Hərənin öz həddi,öz hüdudu çox.
Hər şeiri bir çiçəkdir,dərib qox,
Gül ətiri ürəyinə dolacaq,
Öz yurduna gözəl şair olacaq.

Şeirləri dəniz kimi coşacaq,
Ləpələri nəğmələrin qoşacaq.
Hələ çox-çox sahilləri aşacaq,
Hər an zəfər nəğməsini çalacaq,
Öz yurduna gözəl şair olacaq.

## RUHUM TƏBİƏTDƏDİR

Vücudum evdədirsə,
Ruhum təbiətdədir.
O dağlar,o meşələr,
Sevgi-məhəbbətdədir.

Görmədiyim o dağlar,
O ormanlar,o bağlar,

Gur çaylar,buz bulaqlar,
Mənlə ünsiyətdədir.

**DƏRD MƏNDƏDİR**

Yaralı aslanam,dərdlərim də çox,
Yaramı sarıyan bir həmdəmim yox.
Sevincim kədərlə ötüşür az-çox,
Qəlbimin yarasın sarıqlar zaman.

Çoxdur bu dünyada şadlıq, toy, büsat,
Amma dərdlər ilə ürək narahat.
Kənardan baxanda görünür rahat,
Bədəndə çarəsiz olubdur ruh,can.

Ağrılar içində ürəyim durar.
Ağrılı bədəndə narahat vurar.
Deməsə dərdini yaxıb yandırar,
Səbirlə gözləyir gəlincə aman.

Bu bir imtahandır,yaman ağrıyar,
Qəlbində dərdlərin sinə dağlayar.
Dua et,o səni hey qucaqlayar,
Çarəni yetirər bircə Yaradan.

**MÜBARİZ OL**

Həyat mübarizədir,
Çalış,vuruş qalib ol.
Qalibiyyət şərəfdir,
Doğru olan tək bu yol.

Qorxma eniş-yoxuşdan,
Get arxaya baxmadan.

Uğur səni tapacaq,
Olsan bir az çalışqan.

Dostu-düşməni tanı,
Sirrini saxla möhkəm.
Daim olub mübariz,
Bu dünyadə çəkmə qəm.

**GÖZ YAŞI**

Yadigardır səndən mənə göz yaşı,
Saxladım ovcumda səndən əmanət.
İllərlə qarşısın ala bilmədim,
Məni məndən aldı gözyaşım əlbət.

Günəşin də rəhmi gəlmədi mənə,
O zər şəfəqlərin çox gördü, neynək ?
Əsən küləklər də, yağdırdı yağış,
Ağlatdı buludu o körpələrtək.

**QAÇMA SƏN**

Nə qədər qaçsan da,öz taleyindən,
Qədər addlm-addım izləyir səni.
Dünyada səpdiyin o dərdlər ilə,
Yandırıb ocaqda közləyir səni.

Nə qədər taleyin acı olsa da,
Vurma kürəyini torpağa əsla.
Toplayıb gücünü ayaqda dursan,
O xoş gələcəyə çatarsan, anla.

## DUA

Qaldır əllərini uca Allaha,
Dəfələrlə Ona səcdə eylə sən.
Xəstəkən yataraq öz yatağında,
Allaha durmadan dua söylə sən.

Namazdan aralı dayanma heç vaxt,
Əgər möminisən budur gözəl baxt.
Dualar cənnətdə sənin üçün baxt,
Sonsuz məqsədinə yetiş böylə sən.

## KİŞİ

İncidə bilmərəm dünyada səni,
Sən mənim başımın tacısan, kişi.
Utanma heç zaman kasıbçılıqdan,
Sən evin çörəyi,sacımsan,kişi.

Hər səhər əlləşib sən çalışırsan,
Əlindən salmırsan zəhməti,düzü.
Nə olsun gəlirsən tək bir çörəklə,
Möhtac eyləmirsən kimsəyə bizi.

Varını göstərən bəzi kişilər,
Əzabkeş insanı anlaya bilməz.
Güvənib puluna deyər yalanı,
Səhv edib özünü danlaya bilməz.

Mən kişi demərəm həyatda heç vaxt,
Eşqi-məhəbbəti atan kişiyə.
Səni heç bir zaman dəyişmərəm mən,
Zatını paraya satan kişiyə.

## DİNLƏ

Səhv edib özünüzü əfv elədiniz,
Gül kimi həyatı məhv elədiniz.
Həyatda seçimdə səhv elədiniz,
Böyük nəsihəti dinləmədin heç.

Bismillah hər işdə vacib bir kəlam,
Hər bir kəs yetincə söyləyər salam.
Çalış ki,həyatda yeməyib haram,
Gördüyün pis işə baxmayaraq keç.

Tanı ana-bacı,qohum-qardaşı,
Yaddan çıxarma sən qonşu-tanışı.
Dinlə xoş sözləri,dostu-sirdaşı,
Onların əlindən zəhər də al iç.

## KİÇİK BİR ULDUZAM

Kiçik ulduzam qalaktikada,
O qədər kiçiyəm,düşmürəm yada.
Böyük bir kainat gizlədib məni,
Həyatın bu eniş,bu yoxuşunda.

"Dünyada fanidir", deyib atalar.
Acını,şirini bir-bir dadan çox.
Danılmaz Allahın bu böyüklüyü,
Ona bənzər olan kainatda yox.

Ulduzlar səmada sayrışan zaman,
Kiçik bir ulduzam böcək kimi mən.
Nuruma baxanlar amma ki, görər,
Hamıdan nurluyam ürək kimi mən.

## ÖZÜNƏ GÜVƏN

Hər kəsə güvənmə,güvən özünə,
Bütün ümidlərin puça çıxmasın.
Bu gün əl tutduğun bəzi adamlar,
Xeyirxah evini vurub yıxmasın.

Umma səxavəti bəzi varlıdan,
Səxavət imandan süzülsün gərək.
Allahın verdiyi varından bir az,
Kasıba verməyə gərəkdir ürək.

## QƏLBİN GİZLİ SƏSİ

Qəlbini isidən bir işdən yapış,
Soyuq yanaşmağa məzarda vardır.
İsti nəfəs ilə qızmasa əgər,
Demək nəfəsi də məzar daşıdır.

Bacarmadığın işdən yapışma heç vaxt,
Baş qoşma xeyirsiz əməllərə sən.
Yaxşılıq gətirən iş ilə, çalış,
Başını dik tutub qürurla gəz sən.

## SƏNƏ NƏ DEYİM

Ürəklər oynadan baxışlarınla,
Qəlbimi oynatdın, sənə nə deyim ?
Canları alacaq təbəssümünlə,
Sevgimi oyatdın, sənə nə deyim ?

Düşünmədin məni, sonu nə olar,
O ürək sahibi yanar qovrular.
Bəlkə də, qəlbindən almısan aşkar,
Fikrindənmi atdın, sənə nə deyim ?

Sevən ürək olur, bilirsən,incə,
Qoru bu sevdiyin ürəyi öncə.
Barı gəl yuxuma elə bu gecə,
Sən məni yaşatdın, sənə nə deyim ?!

**İKİLİ HƏYAT**

Bir dünyanın iki üzü,
Biri sənsən, biri mən.
Var min cürə hadisələr,
Yaxşısı sən, pisi mən.

Hər dərdin iki əlacı,
Biri ölən, biri qalan.
Qəlb pərdəsin titrədənlər,
Biri tardır, biri kaman.

Həyatda iki insan var,
Biri yaxşı, biri yaman.
Hər ikisi yanar, amma,
Biri çöpdür, biri saman.

İkili düşünən insan,
Biri qanan, biri danan.
Qəlbində öz atəşi var,
Alovlanıb birdən yanan.

Üç gözəl bayramımız,
Qurban, Novruz, Ramazan.
Bu yollardan birini seç,
Çalış halal yolu qazan.

## QƏLBİM BUZA DÖNÜB

Bu gün çox narahat bir durumdayam,
Sanki, burulğanlar burulğanıyam.
Dincəlmək bilmirəm, hey fırlanıram,
Qəlbin buza dönüb, açılmır sözü,
Anlaya bilmirəm, söyləyim düzü.

Həyat çox qorxudub mənim gözümü,
Söyləyə bilmirəm sözün düzünü.
Sakit bir otaqda özüm-özümü,
Unutdum, bağlayıb əllərim üzü,
Anlaya bilmirəm, söyləyim düzü.

Çox çətin durumdur, düçar qalmışam,
Bilmirəm nə vaxtdan belə olmuşam.
Günbəgün saralıb həm də, solmuşam,
Kaş həyat ömrümə verə möcüzü,
Anlaya bilmirəm, söyləyim düzü.

## VƏTƏN

Vətən dedim,dodaqlarım çatladı,
Vətən dedi,qucaqlaşıb ağladı.
Vətən dedim,sinəm yara bağladı,
Nə olardı,sevinc aşıb-daşardı,
Övladlar da,xoşbəxt ömür yaşardı.

Vətənimin ucu yox,bucağı yox,
Dərdi boğazdandır,dərdi bilən yox.
Yarışanda ona qalib gələn yox,
Və-t-ə-n dedim,göz yaşımı axıtdım,
Yanaqlara damla-damla dağıtdım.

Azadlığı Vətənimə mayaqdır,
Dərdlərimiz söykənməyən dayaqdır.
Çarəsini bulan yoxdur, boyaqdır.
Can Vətənim, bu qəminə qapandım,
Dərd odlanan boyağıma boyandım.

**VÜSAL**

Elə bir dəqiqə olmayıb ki, mən,
O qəmli gözləri yada salmayım.
Çatılmış qaşların, nəmli gözlərin,
Fikrə dalmasını yada salmayım.

Ahəstə yerişi, xoş baxışları,
Mehriban gülüşü yada salmayım.
Ya Rəbb, dinlə məni, bir diləyim var,
Yetmədim vüsala bu dünyada mən.

İlk eşqim cəhənnəm oduna döndü,
Yandırdı hər addım başında məni.
Barı, təsəlli ver, çarə tap, yetər,
Onsuz da, tək ölüm mənə bəs edər.

**YÜZ ÖLÇ, BİR BİÇ**

Duyğularım dilə gəldi yenidən,
Mən köhnəyəm, dinlə məni,əzizim.
Hər sözümü dinlə eşit ürəkdən,
Görəcəksən faydalıdır hər sözüm.

Qurban olum, qəriblənmə sözümdən,
Səni sevir bu kəs, bu can, bu söz,səs.
Elə et ki, düşməyəsən gözümdən,
Hər bir işi düşün, yüz ölç və bir kəs.

Atalardan bir misal var deyirlər ;
"Fındıq qozdan balacadır",bilirlər.
Hər kim doğru yolu tutmaz,yeriməz,
Özgəsinin bir fitinə gedirlər.

**PƏNAHDIR**

Uca Allah mənə fürsət versəydi,
Həyatımda çox şeyi dəyişərdim.
Əl tutmağı yenə davam edərək,
Xeyir əməl qazanında bişərdim.

Mehribanlıq,qayğıkeşlik,uzaqlıq,
Cənnətinə açılacaq qollardır.
O yollarda keçiləcək sınaqlar,
Dərgahına açılacaq yollardır.

Anlamadan atılacaq addımlar,
Gələcəyə yazılacaq günahdır.
Rəsulullah və Əmirəlmöminin
Xeyir işdə müəllimdir, pənahdır.

**SÖNƏ BİLMƏYƏ**

Gecələr yasdığı qucaqlayaraq,
İçimdə yanğıyla ağlamışam mən.
Sevgi-məhəbbətin nə olduğunu,
İlləri ötürüb anlamışam mən.

Nə yaxşı bu dərdə mübdəla olub,
Bu atəş içində yanmamışam heç.
Külümü sovurub dəli küləklər,
Təknədə toz kimi qalmamışam heç.

Böyük bir dərd imiş buna alışan,
Yana gecə-gündüz,sönmək bilməyə.
Yandıra ətrafın,yandıra özün,
İstəmiş olsa da,sönə bilməyə.

## YAXŞILIĞI GÖZLƏMƏ KİMSƏDƏN

Yaxşılığı gözləməyin kimsədən,
Uğur özü gələcəkdir qapına.
Qanmayanı qandıranlar tapılar,
Qananların qurban olum adına.

İnsanlığdan düşməyibsə payına,
Vaxt olar ki,düşə o öz oduna.
Pis əməlli tüpürdərək zatına,
Yaxşılığlar yazılacaq adına.

## SON BAHARIMSAN

Apar məni yanına,
Unutma sən varımsan.
Yoxluğuna dözməyən,
Həm eşqim,həm yarımsan.

Sevincim də,səninlə,
Qəmi sənə qoymaram.
(Çünki özüm qəmliyəm,
Ehtiyac da duymaram.)

İnan mənə həyatda,
Həm yoxum,həm varımsan.
Dəyişmərəm heç kimə,
İlk və son baharımsan.

## AY MƏNİM DAN ULDUZUM

Gör necə də,gözəldir,
Həm incə,həm əfsəldir.
Sevincin də özəldir,
Ay mənim dan ulduzum.

Öl deyərsən,ölərəm.
Qal deyərsən,qalaram.
Mən eşqinə yanaram,
Ay mənim dan ulduzum.

Haraylaram,araram,
Mən canın,can olaram.
Atəşinə yanaram,
Ay mənim dan ulduzum.

Göylərində süzərəm,
Dağlarında gəzərəm,
Güllərindən üzərəm,
Ay mənim dan ulduzum.

Bir bədəndə çüt əlik,
Cüt göztək bir görərik.
Sən də,mən də,gözəlik,
Ay mənim dan ulduzum.

## PLASTİK ƏMƏLİYYAT

Qurddan qurd törər,
Qurd qurbağa törətməz.
Qurdun əvəzini heç,
Bir heyvan verə bilməz.

Törəyər xasiyyətdə,
Başqa heyvana bənzər.

Gəzərək qarış-qarış,
Pələng "pələngəm" deyər.

Buynuzda oxşasa da,
Bizim yerli keçilər.
Dağ keçiylə yarışda,
Yanaşı yeriməzlər.

Yeriyər asta-asta,
Düz dünyanı gəzərlər.
Kirpiylə tısbağanın,
Bənzəri yox deyirlər.

İt, ulaq bir də,poni,
Bənzərləri varmı heç ?
Xasiyyətlər uyuşmur,
Duqqət eylə özün seç.

Meşənin heyvanların,
Evdə bəsləmiş olsaq.
Böyüyəndə hamısı
meşəyə üz tutacaq.

Qoy hərə öz yerində
qalsınlar,budur bəsi.
Plastik əməliyyat
dəyişməsin heç kəsi.

## DEYƏK HƏR AN DÜŞMƏNLƏRƏ

Sən həyatın bir varlığı,
Ağla bacı,qardaş ağla.
Hıçqırtınla bu dünyanı,
Dağla bacı,qardaş,dağla.

Şəhidlərim narahatdır,
Torpaq qalıb yad əllərdə.
Sevincini qoy kənara,
Ağla bacı,qardaş,ağla.

Vətənimin bir hissəsi
yad əlində ah eyləyir.
Gecə-gündüz ağlayaraq,
Tənha qalıb hey inləyir.

Ağla bacım,qardaş,ağla !
Ta qalınca ürək dağsız.
Gör necə kimsəsiz qalıb,
Gözəl dağlıq Qarabağsız.

Cıdır düzü,Topxanada,
Mənfur düşmən atın çapır.
Unutmayaq biz keçmişi,
Bu gün torpaq qan ağlayır.

Deyək hər an düşmənlərə,
"İnsanların əzabı da,
Uşaqların naləsi də,
Obaların yanması da,
Qalmayacaq kisəsində.

Yeyib,içib keyf edirsiz,
Qorxa-qorxa Qarabağda.
Cəzanızı alacaqsız,
Minbir dərdlə Qarabağda".

**SEVƏNLƏR BİLƏR**

Səhər şəfəqləri işıq saçantək,
Hər səhər sevgimə işıq saçırsan.
Arzudan,ümiddən doyan fikirtək,
Qəlbimdə eşqimi sən oyadırsan.

Məhəbbət qaynayır damarlarında,
Qəlbimə sığmayır sevincim mənim.
Mən səni görsəm də,arzularımda,
Amma ilk baharda nədən görmədim ?

Sözümüz söz olsun əməlimizdə,
Sevişib yer verək ürəyimizdə.
Görüşək nə olar,gözəl məkanda,
Alışıb yanaq biz istəyimizlə.

Qoy bizi sevənlər düz anlasınlar,
Sevənlər sevginin sirrini bilər.
Bir ömür sevdiyin kəslə yaşasan,
O ömür səninçün hər şeyə dəyər.

**ALLAHIMA QURBAN OLUM**

Sən qəlbimdə bir incisən,
Həyatımın sevincisən,
Məhəbbətdə birincisən,
Allahıma qurban olum.

Keşməkeşli namərd yolu,
Açılmasın sənə qolu.
Heç geyinmə ölüm donu,
Allahıma qurban olum.

Min cür körpü var həyatda,
Xoş ömür sür hər saatda,
Əzab çəkmə kainatda,
Allahıma qurban olum.

Gülsün hər zaman dodağın,
Səhv yol getməsin ayağın.

Qoy mərdlər olsun dayağın,
Allahıma qurban olum.

**ROMANA DÜŞƏR**

Hər sevən yazarsa tarixçəsini,
Nə dəftər bəs edər,nə də ki,qələm.
Bayatı, şeirə, povest, romana...
Bu sevgi həyatı gəlməyəcək kəm.

Nə çəni hiss edib dumana düşər,
Nə də,qar-yağışlı borana düşər,
Həyatı yazacaq o gecə-gündüz,
Bir ömür adlanan romana düşər.

Eşitməz nə alqış,nə də ki,tərif,
Oturar özü də sanki qəfəsdə.
Düşünə dərindən olub keçəni,
Həyəcan hisləri hey cana düşər.

Bu duyğu aləmi öz sevgisində,
Ürək yaşadıqca eşqin səsində,
Sevgi niyyətinin xoş həvəsində,
Min fikir quraraq gümana düşər.

Bərk tutaq sevginin sevən əlini,
Qoyaq biz romanın ilk təməlini,
Ağrının,acının qırıb belini,
Bu ömür ən böyük cahana düşər.

## SÖZÜMÜ KƏSMƏ

Ağartdım başımın saçını dən-dən,
Söyləyim sözümü hər an ürəkdən,
Dəyərlə dediyim sözlərimə sən,
Kənardan dur dinlə, sözümü kəsmə,
Qərarı verməyə heç vaxt tələsmə.

Dəyərli fikirlər hər an təbdədir,
Dinləmək istəsən sözüm dəbdədir,
Yazdığım sətirlər bil,qələmlədir,
Kənardan dur dinlə,sözümü kəsmə,
Qərarı verməyə heç vaxt tələsmə.

Sevgini qatmayın istək-amala,
Məhəbbət bağlıdır ağıl-kəmala.
Eşq sözü adamı tərkinə ala,
Kənardan dur dinlə,sözümü kəsmə.
Qərarı verməyə heç vaxt tələsmə.

## TƏNHALIQ

Tənhalığın sıxıntısın,
Ancaq tənha qalan bilər.
Ürəyindən keçənləri,
Sevdiyiylə yarı bölər.

Qara bəxtin,qara günün,
Ağ günüylə səhv etməyər.
Ağ gününü,qaranlığı,
Tez bir zaman tərk eyləyər.

## ŞİKƏSTLİK

Deyir ki,axsaqdır,başa düşürəm,
Deyir,gözü kordur,başa düşürəm,
Acizdir,əfəldir,başa düşürəm,
Ürəyi şikəstdir,başa düşmürəm ?!

Sızladı bu qəlbim iyrənc sözlərdən,
Ağırlıq sinəmi sıxdı qəfildən,
Fiziki şikəstin qorxusu yoxdur,
Mənəvi şikəstlik olmasın qəlbdən.

## HEÇ VAXT UNUTMA

Ya sevincli olasan,
ya da ki,qəmli.
Ya kasıb olasan,
ya da ki,dəmli.

Sevgi həyatına
hər an dolasan,
Həmişə vicdana
bağlı olasan.

Arxayın olarsan
sevincinə sən,
Elə bir qəm gələr
gözlənilmədən.

Ümidin üzülər,
kasıblıq yetər,
Hər kəsin ruzisin
Allah yetirər.

Sevgili olmağın
məsləhət deyil,
Ailə qədrini
çalış hər an bil.

Namusu,vicdanı
sən çölə atma.
Bunlar bir varlıqdır
heç vaxt unutma.

**VƏTƏN AZAD OLAYDI**

Yaş üstə yaş gətirdim,
Çəkəmmirəm dərdini.
Vətənin azadlığın
görəmmədim,nə edim ?

Kaş ki,o gün gələydi,
Qələbə səslənəydi,
Bütün ağrı-acılar,
Unudulub gedəydi.

Gözəl həyat içində,
Sevinc qəlbə dolaydı.
Oynayaydı uşaqlar,
Gülüşlər bal olaydı.

Gəzişəydik biz dərdsiz,
Vətən azad olaydı.
Qəmli ürəklərimiz,
Hər zaman şad olaydı.

## OLAR

Böyüklərdən qalan bir məsəl də, var,
Deyir,"Dərdi-sərin ömrü az olar".
Yaxşı danış, yaxşı söylə,yaxşı gör,
Qeybət etmə, ömrün-günün saz olar.

Göz yummağı öyrən, bacar, çalış sən,
Kar olmağı götür böyüklərindən.
Danışmayıb, səbr eyləyib lal olsan,
Davranışın, yaşayışın naz olar.

Kiçiklərdən üz çevirmə sən qəti,
Eyləməsən böyüklərə hörməti,
İçindəki bahar olan niyyəti,
Qış ovlayar, çəmənliyin daz olar.

## ÜMİDLİ ARZULAR

Dəyişir əhvalım,pozulur halım,
İstəyin,amalın alınmayanda.
Qəlbində ümidli arzu-istəyin,
Pərən-pərən olur çin olmayanda.

Sığışa bilmirsən sən bu dünyaya,
Atırsan,tutursan fikirlərini.
Bir evin küncündə tənha oturub,
Hədər ötürürsən bu günlərini.

Allahım,bir təkcə Sənsən gümanım,
Pənah gətirirəm mən dərgahına.
Al mənim qəlbimdən bu dərdlərimi,
Xoşbəxt insan çıxar xoş sabahına.

## QAÇIRMA İNSANLARI

Gözəlliklə dünyanı
xilas edə bilməzsən,
Onda əxlaq olmasa,
Söylə,sən nə edərsən ?

Düzgünü qoy qarşına,
Səbəbini taparsan.
"Təndirini gur eylə,
çörəyini yaparsan".

Halal əppək yeyənin
övladı halal olar.
Doğru söz danışanlar,
Yalan deməz,lal olar.

Sevgini isti saxla,
Ürəyini buz kimi.
Sən sevilmək istəsən,
Özün sev bu aləmi.

Qaçırma insanları,
İsnişdir sən özünə.
Övladına yol göstər,
Atma dünya közünə.

## BƏXT ULDUZU

Axtardım yerlərdə kimsə tapmadım,
Yuxarı baxanda ulduzlar gördüm.
Gücüm yetsə idi aya çıxardım,
Orda oturardım ulduz yığardım.

Say seçmə ulduzlar gör nə qədərdir,
İrili-xırdalı doğranıbdırlar.
Böyük ayı bürcü çömçəyə bənzər,
Bir neçə ulduzu oğranıbdırlar.

Gözüm çəkilməyir axşam olarkən,
Ulduzlar sayrışır bizsə yatanda.
Bizim ulduzumuz bəxt ulduzudur,
Çatdıra bilmirsən arzu tutanda.

İnsanın gözündə ən böyük ulduz,
Günəşdir deyirlər,məncə yalandır.
O bəxt ulduzudur ən böyük olan,
Onun böyüklüyü elə insandır.

**AY ALLAH**

Mən şair deyiləm,yazıram hərdən,
Düçarı olduğum qəmdən,kədərdən...
Təsadüf sevdiyim nazlı qəmərdən,
Yazmasam ürəyim partlar,ay Allah,
Görəsən aşiqin anlar,ay Allah ?!

Hər bir insan eşqə düşür,mərəzdir,
Çoxuna məhəbbət quru çərəzdir.
Aşiqin dərdini kimsə bilməzdir,
Yazmasam ürəyim partlar,ay Allah,
Görəsən aşiqin anlar,ay Allah ?!

Axtarsan dərdlərin yoxdur dəvası,
Oxlanıb sızıldar hər an yarası.
Fələyin də,bilməm nədir davası,
Yazmasam ürəyim partlar,ay Allah,
Görəsən aşiqin anlar,ay Allah ?!

Dərdlər aram ilə yağır başıma,
Həsrət qoydu torpağıma,daşıma,
Deyirlər,-Tərk elə eşqi,daşıma.
Yazmasam ürəyim partlar,ay Allah,
Görəsən aşiqin anlar,ay Allah ?!

Tarix boyu əzab çəkib sevənlər,
Məhəbbət bəladır deyib ərənlər.
Məni tək axtarar qəlbən sevənlər,
Yazmasam ürəyim partlar,ay Allah,
Görəsən aşiqin anlar,ay Allah ?!

**DÜZ YOLUNDA OL**

Sevgi dolu qəlbi tapmaq istəsən,
Onu yerdə yox,göydə axtar sən.
Qəlbimdə daimi qalmaq istəsən,
Çalış ki,yalan yox,doğru deyəsən.

Həyat sıxsa səni məngənəsində,
Su kimi təmiz ol,saf içilərsən.
Düz sözlə millətin qabağında sən,
Şahın əvəzindən şah seçilərsən.

Bilirsən,doğruçu yolunu azmaz,
Yalanın hər zaman bükər qolunu.
Çatmaqçün var-dövlət,şana,şöhrətə,
Ağıllı həmişə tapar yolunu.

İndi yol sənindir,fikir sənindir,
Düz yolu seçərsən,sənindir bu yol.
Çalış bu həyatın getməsin hədər,
Əyrini düzəldən düz yolunda ol.

## NİYƏ QIYDIN NƏRMİNİMƏ

*(Təcavüzə məruz qalıb yandırılan*
*balaca Nərmin balaya)*

Sən zalımdan bir törəmə,
Bir qatilsən Vətəninə.
Sən zalımdan bir törəmə,
Niyə qıydın Nərminimə?

Necə qıydın sən, ay qansız,
Belə məsum fəriştəmə?
Anan yoxmu, bacın yoxmu,
Niyə qıydın Nərminimə?

Düşmən dedik erməniyə,
O da sən tək çox körpəyə,
Zalımlığın elədi də...
Niyə qıydın Nərminimə?

Düşmən ilə sərhəd qoyduq,
Qurd balasın biz qoruduq,
Etibarın bumu sənin?
Niyə qıydın Nərminimə?

Ağla Vətən, ağla, durma,
Qəsd etdilər gələcəyə.
O bir bacı, o bir ana,
Niyə qıydın Nərminimə?

Matəm günü yaxınlaşır,
Şəhidləri yad etməyə.
Bu körpə də bir şəhiddir,
Niyə qıydın Nərminimə ?

## A BALACA QARA QIZ

Baş əyirəm önündə,
A balaca qara qız.
Min əzablı dünyaya,
Göz açmısan, qara qız.

Böyük bir sevinc idi
sən gələndə həyata.
Ata-ana sevinci
sığmayırdı dünyaya.

Ağrı-acı bilmədən
yaşayırdıq sevincək.
Uzun qara saçların
çiyinlərində çiçək.

Nazın, qəmzən sığmazdı
O balaca dünyaya.
Ərköyünlük edərdin
Həm ata, həm anaya.

Qayğılı günlərdən heç
Olmaz idi xəbərin.
Səadət dolu evin
sən idin bal-şəkəri.

A balaca qara qız,
Anan səni sevərdi.
Atan oğul çağırıb,
Dayağımsan deyərdi.

Beləcə böyüyərək sən,
Nə dərd bildin,nə qüssə.
Yavaş-yavaş gəlirdi
yaş da yaşının üstə.

A balaca qara qız,
Bəxtlilərdən olasan.
Məhəbbəti, sevinci,
Hər addımda duyasan.

**QƏHƏRLƏNİB DOLMUSAN ?**

Mən şairəm, dərdlərimi bilən yox,
Sözlərimi dinləyən çox, güvən yox.
Ağlayıram,göz yaşımı silən yox,
Zalım dünya, nə vaxt dayaq olmusan ?
Mən yanmışam,qəhərlənib dolmusan ?

Dərd əlindən alışıram, yanıram,
Zamanla qəlbimdə arzulayıram,
Tellərinə ipək lent bağlayıram,
Nə vaxt dayaq olub məndən sormusan ?
Mən yanmışam, qəhərlənib dolmusan ?

Fikirlərin yeridilib qanıma,
Damarımla axıdılıb canıma,
Ayaqüstü dayanıqlı halıma,
Söylə görüm,sən nə vaxtdan yanmısan,
Mən yanmışam, qəhərlənib dolmusan ?

Mən baxsam da,sən dünyanın sözünə,
Dilim gəlmir vurum sənin üzünə,
Zilləyərək gözlərimi gözünə,
Soruşuram,nə vaxt həyan olmusan ?
Mən yanmışam,qəhərlənib dolmusan ?

## TOXUNMA SƏN QƏLBİMƏ

Məhəbbət göz işığı,
Gözümə toxunma sən.
Gözümə işıq gəlir
məhəbbət görəndə mən.

Sözlər dolub daşacaq,
O yazılmaq istəyir.
Sıxır əziz qəlbimi,
Nəfəs almaq istəyir.

Ara-sıra doluram,
Daşıram çaylar kimi.
Sənə elə bağlıyam,
Bir ildə aylar kimi.

Lazımsız çör-çöpləri,
Sovurub aparıram.
Toxunma sən qəlbimə,
Sonra peşman oluram.

Nə qədər şirin olsa,
Qaçıb uzaqlaşıram.
Eşqin şirinliyindən,
Qismətlə ağlaşıram

Acı eşqin yanında,
O gün tənha qalıram.
Toxunma sən qəlbimə,
Onla nəgəs alıram.

## ANALAR

Sizsiz bu dünyanın nazı-neməti,
Sizsiz bu dünyanın yoxdur ləzzəti.
Saxlayıb böyüdüb verdiz ibrəti,
Həyatda hər şeyə qadir analar.

Qədrini biləsiz onun, balalar.
Öyrədir sevməyi, halal yeməyi,
Öyrədir həyatda düzgün deməyi.
Öyrədir insanla rəfdar etməyi,
Həyatda hər şeyə qadir analar.

Gəlin qədrin bilək onun, balalar.
Onunçün qiz ilə, oğlan fərqi yox,
Onunçün qızılın şalın fərqi yox.
Verəcək qanın həm canın,fərqi yox,
Həyatda hər şeyə qadir analar.

Daima qədrini bilək,balalar.
Sevər ailəsin, canını qoyar,
Gözünün nurunu,qanını qoyar.
Düşməni öldürər,dərisin soyar,
Həyatda hər şeyə qadir analar,
Analar qədrini bilin,balalar.

**GÖZLƏR QƏLBİN AYNASIDIR**

İşıq saçar hər bir yana gözündən,
Danışanda dürr tökülər sözündən.
Söz sərrafı sevilər deyimindən,
Gözlər qəlbin aynasıdır, əzizim.

Ard-ardınca sınaqlardan keçənin,
Rast gəldiyi bulaqdan su içənin,
Sözlərdən də, tükü tükdən seçənin,
Nur tökülər simasından, əzizim.

"Balıq başdan iylənər", -söyləyirlər,
Dedikləri fikrə də güvənirlər.
Günü-gündən hər yerdə seçilirlər,
Qürurları əyilməzdir, əzizim.

## *MÜNDƏRİCAT*

*Nəşriyyatdan.....3*
*Ön söz əvəzi.....5*
Şah sevgi.....9
Hazır ol.....9
Səni qəpiyə satacaq.....10
Dostlarım.....11
Rəbbim səni qorusun.....11
Sənli yuxu.....12
Axırda çəkərlər.....12
Ana…..13
Yox olan sevgi…..13
Ağ dona qara yamaq…..14
Könül yarası…..14
Ruzi qədərlədir…..15
Amin deyək…..15
Həmdəmin olaram…..16
Qoru…..16
Olmasın…..17
Qəlb çarəsi…..17
Ağ-qara don…..18
Səni sevdiyimdən…..18
İnamla yaşa…..19
Xəyallar süfrəsi…..19
Qurbanın olum…..20
Mən Allahın bəndəsiyəm…..20
Qəlbinə sevincin səsini göndər…..21
Ağrın alım.....21
Əbədi varlığ.....21
Uca Allah, kömək eylə.....22
Ölüm sənin qollarında.....22
Dünya sanki ölümdür.....23

Özün yaşa.....23
Qeyrət ilə.....24
Çalış gecikmə.....24
Burax xəbisliyi.....25
İnsanlıq yolu.....26
Sevgisiz həyat.....26
Hər anın öz bəxti var.....27
Lal baxışlar.....28
Şükür sən yaşayırsan.....28
Sirli palan.....29
Bir dəfə də.....30
Tale yazısı.....30
Körpə çiçək.....31
Ağlama.....32
Qəlbimin həmdəmi harda qalmısan?.....32
Vüsal həsrəti.....33
Şeir və şair.....33
Dərdli boxça.....34
İstədim şəklini çəkim.....34
Allahdan şikayət niyə edirik?.....35
Bir dillənsənə.....35
Artıq məqamdır.....36
Bədgüman olma.....37
Həzin musiqi.....37
Vurdum.....38
Bəri gəl.....39
Can şirin, ömür gözəl.....39
Yaddan çıxmaz Qarabağ.....40
Yadına düşər.....41
Suya açılır dərdlər.....42
Gözlənilməz gələn qonaq.....42
Belə yaxşıdır.....43
Taparsan məni.....43
Körpünün üstə.....44

Hamının ürəyindən olan.....45
Sevgi etirafı.....46
Getdiyin yolları unut.....46
Vətən oğlu.....47
Niyə gedənlərdən birinci oldun?.....48
Çağlayan, ağlayan dəniz.....48
Can yoxdur.....49
Mərdlik nişanəsi.....49
Gözümdə nisgil çökməsin.....50
Bağışla.....51
Dərddən boğuluram mən.....52
İstəmirəm daha heçnə.....52
Paxıl olmaq qəbahətdır.....53
Xəyallar.....54
Dualar qəbul olsun.....54
Nə oldu sənə?.....55
Yaşamaq olar.....55
Deyim, deməyim ?.....56
Mehriban nəvəmə.....56
Dəli kimi sevirəm.....57
Ay işığında.....58
Gecikmiş məhəbbət axtarırsan sən.....58
Nəsihət.....59
Eşqə giriftarın halı nə olur.....59
Həyat bir pəncərə.....60
Gülüm.....60
Yapışma.....62
Şəhidin anaya etirafı.....62
Öpərdim.....63
Ümid sabahadir,vərəni Allah.....63
Qoca çinar.....64
Arzular.....65
Görüş.....65
İstək.....66

Umma.....66
Görən olmadı.....67
Ona deyin qayıtsın.....67
Rəsim.....68
Arzularım dilə gəlmir.....69
Gül çələngi hazırlayıb.....69
Gözəl dostlarıma.....70
Azərbaycan dərdlidir.....71
Can istədi.....71
Keçmə namərd körpüsündən.....72
Yolumla gedəcəyəm.....73
Elçi gəlmişdi.....73
Həyatında şər olmasın.....74
Yadına düşsəm.....74
Tələsmə.....75
Müqəddəs eşq.....75
Qaytarın torpağı......76
Gözəl Qubam.....76
Torpaq dərdi.....77
Mərdiməzar.....77
Sevgi.....78
Kədərin qəlbimi dağıdır.....78
Unut.....79
Marş.....79
Nəzarət eylə.....80
Ey qəlbimin parası.....81
Ditdili əməliyyatı.....81
Yuxu.....82
Baxa-baxa mən durmuşam.....82
Özünə bax.....83
Sevgilim.....84
Aşıq....84
İncidir.....85
Sonuncu arzum.....85

Kaş ki.....86
Qəm yükü.....86
Dünənki sevgimiz.....87
Təsəlli.....87
Niyə razısan axı?.....88
Son ümid.....88
Dünyamı sənə verdim.....89
Qorxma canım.....89
Şair.....90
Daha sənə nə deyim.....90
Taleyim.....91
Gör nələr olur.....92
Gözəl şair olacaq.....93
Ruhum təbiyyətdədir.....93
Dərd məndədir.....94
Mübariz ol.....94
Göz yaşı.....95
Qaçma sən.....95
Dua.....96
Kişi.....96
Dinlə.....97
Kiçik bir ulduzam.....97
Özünə güvən.....98
Qəlbin gizli səsi.....98
Sənə nə deyim....98
İkili həyat.....99
Qəlbim buza dönüb.....100
Vətən....100
Vüsal.....101
Yüz ölç, bir biç.....101
Pənahdır.....102
Sönə bilməyə.....102
Yaxşılığı gözləmə kimsədən.....103
Son baharımsan.....103

Ay mənim dan ulduzum.....104
Plastik əməliyyat.....104
Deyək hər an düşmənlərə.....105
Sevənlər bilər.....106
Allahıma qurban olum.....107
Romana düşər....108
Sözümü kəsmə.....109
Tənhalıq.....109
Şikəstlik.....110
Heç vaxt unutma.....110
Vətən azad olaydı.....111
Olar.....112
Ümidli arzular.....112
Qaçırma insanları.....113
Bəxt ulduzu.....113
Ay Allah.....114
Düz yolunda ol.....115
Niyə qıydın Nərminimə.....116
A balaca qara qız....117
Qəhərlənib dolmusan ?.....118
Toxunma sən qəlbimə.....119
Analar.....120
Gözlər qəlbin aynasıdır.....121

Azərbaycan Respublikası «TƏHSİL» Mərkəzi
«Borçalı» Nəşriyyat-Poliqrafiya Müəssisəsi

Bakı, Mətbuat prospekti, 529-cu məhəllə,
«Azərbaycan» nəşriyyatı, IV mərtəbə,
«Şərqin səsi» redaksiyası.

***Nəşriyyat direktoru:*** **Müşfiq BORÇALI**

***Redaksiya müdiri:*** **Zemfira AYVAZOVA**

***Ədəbi redaktor:*** **Firəngiz İBADOVA**

***Nəşriyyat redaktoru:*** **İlyas ƏFƏNDİ**

***Texniki redaktor:*** **Etibar OVÇUYEV**

***Korrektoru:*** **Yunis QARAXANOV**

***Telefonlar:***
(050) - 322-05-55; (055) - 692-05-55;

***E-mail:*** M-Borcali@mail.ru

**Emfira Ərkli**

***Dünyam mənim***
*(Şeirlər)*

Yığılmağa verilib 03.10.2020. Çapa imzalanıb 20.01.2021.
Şərti çap vərəqi 8. Fiziki çap vərəqi 8.
Ofset çap üsulu. Əla növ kağız.
Sifariş 20. Sayı 1000.
Qiyməti 5 manat.

Bakı – 2021

Bu gün dəyərli şairimiz "Emfira Ərkli"nin 71 yaşı tamam olur.

Dəyərli və hörmətli Emfira xanım; - Sizi yeni yaşınız münasibəti ilə səmimi qəlbdən təbrik edir, möhkəm can sağlığı diləyirəm.
Gələcəyini gətirəcək hər yeni günün bir əvvəlki gündən daha gözəl, istəklərinə uyğun və sizi xoşbəxt edəcək şəkildə olmasını arzulayıram.
"Ulduzlar" kimidir dostlar, onları hər vaxt görə bilməzsən... amma sənin üçün hər zaman var olduqlarını və səni düşündüklərinə əmin ola bilərsən.
"Gülüstan" kimi qəlbində daima şeirlər çiçək açsın, kədər uzağa qaçsın.
Ad günün mübarək.

Tağıyeva Emfira Hacıbaba qızı (Emfira Ərkli) 17 fevral 1950-ci ildə Xaçmaz rayonunun Alıc qışlaq kəndində ziyalı ailəsində anadan olub.
Orta məktəbi bitirdikdən sonra Konservi kombinatda laborant və hesablayıcı vəzifəsində çalışıb. 1969-cu ildə Bakı Yeyinti Sənaye Texnikumuna daxil olub, oranı bitirdikdən sonra taxıl hazırlığında hesablama şöbəsinin müdiri, həm də partkom kimi çalışıb.
Daha sonra Texniki Peşə məktəbində ixtisası üzrə istehsalat təlimi ustası, həm də müəllimlik edib.
Uzun müddət məktəbin partkomu olub.
Ailəlidir. İki oğlu, bir qızı, yeddi nəvəsi var.

Şeirlərində Qarabağ müharibəsindən, Şanlı qələbədən, mərd oğullarımızın döyüşlərdə göstərdikləri qəhrəmanlıqlardan bəhs olunur.
Onun şeirləri Bakıda “Yurd”, Qubada “Şəfəq”, Sumqayıtda "Fakt" qəzetlərində; Qubanın “Gülüstan inciləri” Şabranın “Şabran nəğmələri” almanaxlarında; Bakıda Vidadi Ağdamlının rəhbərliyi altında "Gözüm yolda könlüm səsdə", "Qələbəyə gedən yol", "Gəlirik Qarabağa", "Qarabağ Azərbaycandır" poeziya antalogiyalarında davamlı çap olunur.

AKİVİHİ rəyasət heyyətinin qərarı ilə 70 illik yubleylə əlaqədər olaraq "Qızıl qələm" media mükafatı, "Azərbaycan Bayrağı " diplomu "Xəlil Rza Ulutürk" diplomu, "Ulu Öndər" fəxri media mükafatları ilə təltif olunmuşdur.
Hazırda "DÜNYAM MƏNİM" adlı ilk kitabı Borçalı nəşriyyatında çap olunur.

Sizlərə dəyərli şairəmizin şeirlərini təqdim edirik;

Ruhun şad olsun oğul

Yerin cənnətdi oğul
Elin qürbətdi oğul.
Sən Vətənçün doğuldun,
Vətəndə şəhid oldun.
Keçmə gözəl Allahdan,
Nur tökülür simandan.

Öz payını alıbdı,
Bizi heyran qoyubdu.
Şəhidlik uca zirvə,
Yanına aparıbdı.

BAĞIŞLA

Nə yatmısam,daha bəsdi, oyan sən.!
Son dəfədi, görüşümüz bilirsən..?
Bir qırpımda, incə telimi üzsən.?

---Dayanmaram, çatdıraram özümü,
Səmimiyəm, söyləyərəm sözümü.
Mən xətrinə... Dəydim..!
Məni bağışla...!

Nə gözəl hisslərdi, sevib-sevilmək.?
Simanda sevgidən, işartı görmək.?
O solğun baxışla, sonudu demək...?

---Çox çətindi..! Sındırmıram özümü,
Səmimiyəm söyləyərəm sözümü,
Elə demə.. Dərdim..
Məni bağışla...!

Nə bir yuxu gedir, mənim gözümə.?
Nə də sən qəlbimi, ömrüm gəl üzmə.!
Ərköyünəm, baxışımdan üzülmə.!

---Darıxıram, səni görməyəndə mən.
Ömrüm günüm,gəl xətrimə dəymə sən.
Küskün baxma, inan üzülərəm mən.!
Son nəfəsdi.. Öldüm..!
Məni bağışla...!

Emfira demədi, güclə sev məni,
Sevdin,sevəmmədin, demə sev məni.?
Biganə rəftarın, dərd edib məni,..!
---Vallah bəs eyləyər, sevsən sən məni,
Qovla kədərini, qoru sevgini,
Əlvida gedirəm....Məni
Bağışla...!

Ulduzlar və Gülüstan elmi-ədəbi məclisinin üzvü: Müşfiq Qərib

EMFİRA - Fuzelisler ---

Ön sözdə....
5 ci səhifə şeirin
3 cü bəndində
Yca----səhv söz
Uca----düz söz
Yazının 4 cü sətrində
Məhibbət ----səhv söz
Məhəbbət----düz söz

ŞAH SEVGİSİ---9 səhifə
4 cü bənd
3 cü sətir
Olasan----səhvdi
Olsan---- düzdü

HAZIR OL----10 Səhifə
3 cü bənd
2 ci sətir.
Alır----səhvdi
Alar---düzdü.

SƏNİ QƏPİYƏ SATACAQ 11 ci səhifə
6 cı bənd
İkinci sətir
dünyadə-----səhvdir
dünyada----düzdür

DOSTLARIM 11 səhifə
1 ci bənd
3 cü sətir
Yağda----səhvdir
Yağ da----düzdür.

AĞ DONA QARA YAMAQ 14 səhifə
1 ci bənd
1 ci sətir
Həyatımıztək---səhvdi
Həyatımız tək---düzdü

AMİN DEYƏK 15 səhifə
2 ci bənd

4 cü sətir
nevə----səhvdi
necə-----düzdü

SƏNİ SEVDİYİMÇÜN
18 səhifə
2 ci bənd
2 ci sətir
Yazığın----səhvdir
Yazzığın ----düzdür.
2 ci bənd
4 cü sətir
Apat məqfəni----səhvdir
Apar mafəni----düzdür.
3 cü bənd
3 cü sətir
Üzütək----səhvdir
Üzü tək---- düzdür

İNAMLA YAŞA 19 səhifə
1 ci bənd
3 cü sətir
Qaytarmaq olir-----səhvdir
Qaytarmaq olur----düzdür

XƏYALIAR SÜFEƏSİ
19 səhifə
4 cü bən
2 vi sətir
ütəkdə-----səhvdir
ürəkdə

ÖLÜM QOLLARINDA
22 səhifə
2 ci bənd
4 cü sətir
Cənnət----səhvdir
Cənnəti----düzdür.

HƏR ANIN ÖZ BƏXTİ VAR
27 səhifə
6 ci bənd
4 cü sətir
esəsən ----səhvdir
edəsən-----düzdür.

DƏRDLİ BOXÇA
34 səhifə
1 ci bənd
3 cü sətir
"Min fikir bir borcu ödəməz"-----səhvdir
"Min fikir bir borc ödəmir"----düzdür.

ALLAHDAN ŞİKAYƏT NİYƏ EDİRİK
35 səhifə
1 ci bənd
3 cü sətir
Dağıldan----səhvdir
Dağıdan----düzdür

BİR DİLLƏNSƏNƏ.?
35-36 səhifə
3 cü bənd
hər----səhvdir
Hər an-----düzdür.

ARTIQ MƏQAMDIR
36 səhifə
1 ci bənd
4 cü sətir
neyməti----səhvdir
neməti ----düzdür.

GÜLUM
60-61 səhifə
2 ci bənd
1 ci sətir
Gur saçlatı----səhvdir
Gur saçları ---düzdür.
6 ci bənd
4 cü sətir
etain----səhvdir
etsin ---düzdür.

MƏRDİMƏZAR
77 səhifə
1 ci bənd
1 ci sətir
girləyindir----səhvdir
girləyibdir----düzdür.

NƏZARƏT EYLƏ
80 səhifə
3 cü bənd
3 cü sətir
Vətəndaştək-----səhvdir
Vətəndaş----- tək düzdür

EY QƏLBİMİN PARASI
81 səhifə
2 ci bənd
1 ci sətir
səgəqlərin ----səhvdir
səfəqlərin ---düzdür.
2 ci bənd
3 cü sətir
Yağıtək---səhvdir
Yağı tək ----düzdür

DİTDİLİ ƏMƏLİYTATI
81 səhifə
3 cü bənd
1 ci sətir
Zıha-vız----səhvdir
Vızza-vız----düzdür

DAHA SƏNƏ NƏ DEYİM
90-91 səhifə
3 cü bənd
1 ci sətir
Qorxama---səhvdir
Qorxma----- düzdür

GÖZ YAŞI
95 səhifə
1 ci bənd
4 cü sətir
məmdən ----səhdir
məndən-----düzdür.
1 ci bənd
4 cü sətir
Gözyaşım----səhvdir
Göz yaşım----düzdür.

QƏLBİMİN GİZLİ SƏSİ
98 səhifə
2 ci bənd
4 cü sətir
bəzə----səhvdir
Gəz sən----düzdür

İKİLİ HƏYAT
99 səhifə

3cü bənd
3 cü sətir
İkisi də----səhvdir
İkisi -----düzdür

5 ci bənd tam dəyişin

Üç dözəl bayramımız
Qurban, Novruz,Ramazan
Bu düzdür...
Bu yollardan birini seç
Çalış halal yolu qazan.

Bütünlüklə dəyişin bəndi.

QƏLBİM BUZA DÖNÜB
100 səhifə
3 cü bənd
1 ci sətir
Düçara----səhdir
Düçar----düzdür

VÜSAL
101 səhifə
3 vq bənd
1 ci sətir
Elk----səhvdir
İlk ----düzdür.

ALIAHIMA QURBAM OLUM
1 ci bənd
1 ci sətir
Məhəbnətdə----səhdir

Məhəbbətdə ----düzdür
2 ci bənd
1 ci sətir
Keçməkeçli-----səhvdir
Keşməkeşli ---düzdür.

OLAR
112 səhifə
2 cü bənd
3 cü sətir
Səbr edib----səhvdir
səbr eyləyib----düzdür

NİYƏ QIYDIN NƏRMİNİMƏ
111 səhifə
3 cü bənd
2 ci sətir
Səntək----səhvdir
Sən tək ----düzdür

A BALACA QARA QIZ
ÖZÜMƏ YAZMIŞAM.BU ŞEİRİ əlavə edərsiz..
117 səhifə
5 ci bənd
2 ci sətir
Olmazidi----səhvdir
Olmaz idi ----düzdür..